# Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

26
İYUN
2020-ci il
№ 102 (4233)
Qiyməti
40 qəpik

www.baki-xeber.com

Həftədə
5 dəfə çıxır

Qəzet
2003-cü ildən
nəşr olunur

# DAXİLİMİZDƏ VƏ CƏNUBİ QAFQAZDA AZƏRBAYCANIN TERRORLA EFFEKTLİ MÜBARİZƏSİNƏ ABŞ-dan BÖYÜK OBYEKTİV QİYMƏT...

■ səh. 8 ■

**Prezident İlham Əliyev Mingəçevirdə bir sıra açılışlarda iştirak edib** ■ səh. 2 ■

Sosial rifaha yönəlik siyasət pandemiyanın vəziyyətindən asılı olmayaraq dəyişməyəcək - Prezident ilin sonunadək strategiyanı belə müəyyən etdi ■ səh. 6 ■

Prezident indi milli təhlükəsizliyimizin həm də rəhbər post tutanlardan və imkanlı şəxslərdən çox asılı olduğunu dəqiq söylədi ■ səh. 5 ■

Dövlət başçısının tibbi maskadan istifadə zərurəti ilə bağlı çağırışlarının aktuallığı tam təsdiqlənir... ■ səh. 10 ■

**Ordumuz zəfər yürüşünə tam hazırdır...** ■ səh. 9 ■

Pandemiya ilə mübarizədə dövlət nəzarətinin və ictimai qınağın birlikdə sərtləşdirilməsinin mümkün səmərəsi... ■ səh. 11 ■

Bakı Nəqliyyat Agentliyi Prezidentin Gəncədəki çağırışından ilk böyük nəticəni çıxardı - Maskasızların avtobuslara yolunu çoxdan bağlamaq lazım idi... ■ səh. 14 ■

Ermənistan Konstitusiya məhkəməsi parlamentə və baş nazirə daha qəti "asi oldu" - İkihakimiyyətlik dərinləşir ■ səh. 6 ■

Ermənistanın indiki Prezidenti Sarkisyan özünə də, sonrakı prezidentə də ən böyük pisliyini etdi... ■ səh. 12 ■

Gündəlik yoluxma sayı 600-ə yaxınlaşır - karantin qaydalarının yumşaldılmasında azacıq tələskənliyə yol verməsəydik... ■ səh. 15 ■




## Son günün dəhşətli yoluxma rəqəmləri - vətəndaş məsuliyyətsizliyi Operativ Qərargahı daha sərt qərarlar qarşısında qoydu...

■ səh. 4 ■

"Prezident İlham Əliyevin bütün fikirləri dövlətimizin pandemiya ilə mübarizə hədəflərindən bir addım da geri çəkilmədiyini göstərdi" ■ səh. 3 ■



Pandemiyadan ən az zərər çəkmiş Azərbaycan barədə yeni proqnoz - gələn il 3 faiz iqtisadi artım... ■ səh. 11 ■





## Azərbaycanda dövlət virusla mübarizədə nə lazımsa edib - cəmiyyət də dövlət kimi məsuliyyətli olsaydı...

■ səh. 7 ■

## «Həmrəylik, birlik, ardınca yüksək məsuliyyət» - Prezident cəmiyyətimizin pandemiya ilə sadə mübarizə düsturunu bu şəkildə ifadə etdi

■ səh. 3 ■



## Paşinyan tarixi bilgilərdə çox dərində üzmək gücü olmadığını yenə göstərdi - 1920 və 1993-cü il hadisələrinin 2016-cı il hadisələrinə nə dəxli...

■ səh. 12 ■

## Azərbaycanın hərbi təlimləri barədə öncədən beynəlxalq dairələrə məruzə edilməsi - Nazirlik saytda məlumat yayır, ABŞ Departamentindən mübahisəli irad...

■ səh. 8 ■

## Masallılı Cəlil Nəzərov "Əməkdar həkim" adı aldı və Prezidentə məktub yazdı...

**Masallı rayonundan "Əməkdar həkim" adı verilmiş Cəlil Nəzərov öz məktubunda onu bu mükafata layiq gördüyü üçün Prezident İlham Əliyevə təşəkkürünü bildirir:**

"Mənə "Əməkdar həkim" fəxri adı verdiyinizə görə Sizə dərin minnətdarlığımı bildirirəm. Bu təkcə mənə yox, bütün Azərbaycan və Masallı səhiyyəsinə verilən qiymətdir. Söz verirəm ki, gələcəkdə də Azərbaycan xalqına və Sizə sədaqətlə xidmət edəcəyəm".

*Baki-xeber.com*

## Ağcabədidə yaşayan məcburi köçkün Nüsrət Alməmmədov Prezidentə təşəkkürünü belə ifadə etdi...

**"Siz məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması üçün mühüm işlər görmüsünüz. Respublikamızın müxtəlif şəhər və rayonlarında salınan yaşayış kompleksləri, müasir qəsəbələr, tikilən çoxmənzilli binalar bunun əyani sübutudur. Bu yaşayış komplekslərinin, qəsəbələrin açılış mərasimlərində Sizin şəxsən iştirak etməyiniz, yeni mənzillərə köçən insanlara xeyir-dua verməyiniz bizim üçün çox dəyərlidir.**



Bizim ailə Laçın rayonundan məcburi köçkün düşdükdən sonra Ağcabədiyə pənah gətirib. O vaxtdan çətin şəraitdə yaşayırdıq. "Taxta körpü" adlanan ərazidə yeni salınmış 144 mənzilli qəsəbədə bizim ailəyə də hər bir şəraiti olan mənzil verilib". Bu fikirlər Ağcabədi rayonunda məskunlaşmış Laçın rayonundan məcburi köçkün Alməmmədov Nüsrət Bayramqulu oğlunun Prezident İlham Əliyevə yazdığı məktubda öz əksini tapıb.

Məcburi köçkün qeyd edir ki, mənzillə təmin olunduqlarına görə ailəsi adından ölkə başçısına minnətdarlığını bildirir.

*Baki-xeber.com*

## Bakı Metropoliteninin 29 əməkdaşında koronavirus aşkarlandı, 1 nəfər vəfat etdi

**"Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin 29 əməkdaşı yeni tip koronavirus ("COVID-19") infeksiyasına yoluxub. Bu barədə "Trend"-ə "Bakı Metropoliteni" QSC-nin mətbuat xidmətinin rəhbəri Bəxtiyar Məmmədov deyib.**

Onun sözlərinə görə, virusa yoluxan xəstələrin 6-sı sağalaraq evə buraxılıb, 22 nəfər isə hazırda müxtəlif tibb müəssisələrində müalicəsini davam etdirir: "COVİD-19 virusuna yoluxan 1 əməkdaşımız isə dünyasını dünyasını dəyişib. Həmin şəxslər müxtəlif vaxtlarda yoluxublar. Xəstələrin vəziyyəti ilə "Bakı Metropoliteni" QSC-nin rəhbərliyi müntəzəm maraqlanır. Ümumiyyətlə, bu məsələlərdə "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" və digər səlahiyyətli qurumlarla müntəzəm əlaqəli şəkildə fəaliyyət təmin edilir, müvafiq normativ tələblərə ciddi riayət olunmasına xüsusi diqqət yetirilir.

Ötən müddət ərzində bu və digər səbəbdən "COVID-19" şübhəsi ilə müvafiq yaxma götürülmüş 7 işçidə testin nəticəsi mənfi olub.

Yeni tipli koronavirus infeksiyasına yoluxmuş QSC əməkdaşları müxtəlif sahələrdə çalışırlar. "Bakı Metropoliteni" QSC-də hər hansısa sahədə kütləvi yoluxma faktı qeydə alınmayıb".

B.Məmmədov deyib ki, metropoliten işçilərinin hər gün işə başlamasına Nazirlər Kabineti yanında Operativ Qərargahın elan etdiyi müvafiq metodiki göstərişlərdən irəli gələn tələblər və müvafiq yoxlamadan sonra icazə verilir: "Metropolitendə iş başında yoluxma və yaxud bir işçinin digərlərini yoluxdurması faktı qeydə alınmayıb. "COVID-19" simptomları olan xəstələr metodiki göstərişə uyğun olaraq, analizlər verir və nəticə elan edilənə qədər özünütəcrid qaydalarına əməl etməklə ev şəraitində olurlar.

İctimai kütləvi sərnişindaşıma nəqliyyatı vasitəsi olduğundan metropolitendə işçilərin metodiki göstərişlərə və sanitar-gigiyenik tələblərə daim əməl etməsi, bu normaların tələblərinə uyğun sağlam iş şəraitində çalışması, həmçinin onların səhhəti hər gün xüsusi nəzarət altında saxlanılır, müvafiq sahələrin normativ tələblərə uyğun əsaslı, cari və növbədənkənar dezinfeksiyası müntəzəm qaydada təmin edilir".

# Prezident İlham Əliyev Mingəçevirdə bir sıra açılışlarda iştirak edib

**Prezident İlham Əliyev iyunun 25-də Mingəçevir şəhərinə səfər edib.**

Səfər çərçivəsində dövlət başçısı "Azərbaycan" İstilik Elektrik Stansiyasının əsaslı yenidənqurmadan sonra açılışında iştirak edib.

Daha sonra Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinin açılışında iştirak edib. Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi, general-polkovnik Nəcməddin Sadıkov və Müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin Komandanı general-leytenant Ramiz Tahirov dövlət başçısına raport verib.



Hərbi hissədə yaradılan şəraitlə tanış olduqdan sonra Prezident İlham Əliyev hərbi hissənin komanda heyəti ilə görüşüb.

Mingəçevirdə səfərdə olan dövlət başçısı eyni gündə Dövlət Rəmzləri Muzeyinin açılışında da iştirak edib.

Dövlət başçısına muzeydə nümayiş etdirilən eksponatlar barədə məlumat verilib.

# Zakir Həsənov Silahlı Qüvvələr Günü münasibətilə Azərbaycan Ordusunun şəxsi heyətini təbrik etdi

**Azərbaycan Respublikasının Müdafiə naziri, general-polkovnik Zakir Həsənov 26 iyun - Silahlı Qüvvələr Günü münasibətilə Azərbaycan Ordusunun şəxsi heyətini təbrik edib.**




Baki-xeber.com xəbər verir ki, nazir təbrik məktubunda Silahlı Qüvvələrimizin şəxsi heyətini Azərbaycan Ordusunun yaradılmasının 102-ci ildönümü münasibətilə səmimi qəlbdən təbrik edib, Azərbaycanın dövlət müstəqilliyinin qorunması, ərazi bütövlüyünün təmin edilməsi naminə çətin və şərəfli xidmətdə hərbçilərimizə uğurlar arzulayıb.

Məktubda vurğulanıb ki, Azərbaycan Ordusunda vahid komandanlığın yaradılması və ordumuzun nizami ordu kimi formalaşması ümummilli lider Heydər Əliyevin bu sahədə apardığı siyasətin uğurla davam etdirilməsinin nəticəsidir. Ən müasir texnika və avadanlıqla təchiz edilən, aparılan genişmiqyaslı islahatlardan bəhrələnən Silahlı Qüvvələrimiz dünyanın ən güclü orduları sırasında layiqli yerini tutub. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin diqqət və qayğısı sayəsində ordumuzun maddi-texniki təminatı daha da gücləndirilib, ən müasir hərbi şəhərciklər salınıb, zəruri olan bütün hərbi infrastruktur yaradılıb.

"2016-cı ilin aprelində Ağdərə, Füzuli, Cəbrayıl istiqamətlərində və 2018-ci ildə Naxçıvanda Azərbaycan Ordusunun həyata keçirdiyi əməliyyatlar nəticəsində düşmən işğalında olan torpaqlarımızın bir hissəsinin və strateji əhəmiyyətli yüksəkliklərin azad olunması bir daha ordumuzun gücünü nümayiş etdirdi. Azərbaycan Ordusunun yubiley tarixlərində keçirilən möhtəşəm paradlar da ölkəmizin müdafiə qabiliyyətinin, hərbi potensialının daha da güclənməsinə bariz nümunədir", - deyə təbrik məktubunda qeyd olunub.

Şəhid ailələrinin, müharibə veteranları və əlillərinin, eləcə də hər bir hərbi qulluqçunun Azərbaycan Prezidentinin diqqət və qayğısı ilə əhatə olunduğunun diqqətə çatdırıldığı təbrik məktubunda ifadə edilib ki, dövlətimizin başçısının Fərmanına əsasən orduda xidmət edən hərbi qulluqçular xidməti və daimi mənzillərlə təmin olunur, hərbi qulluqçuların maddi, sosial-məişət, xidməti şəraitlərinin daha da yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlərin bundan sonra da uğurla davam etdirilməsinə zəmin yaradılıb.

"Bu bayram günündə Azərbaycanın suverenliyi, müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsini hörmət və ehtiramla yad edir, Vətən uğrunda sağlamlığını itirən hərbçilərimizə, onların ailə üzvlərinə, veteranlarımıza səmimi təbriklərimi və ən xoş arzularımı çatdırıram.

**Əminliklə bildirirəm ki, siz Azərbaycan Respublikasının Konstitusiyasına, Hərbi anda və nizamnamələrə daim sadiq qalaraq yeni qələbələr qazanmaq üçün döyüş və mənəvi-psixoloji hazırlığınızı, səy və bacarıqlarınızı daha da artıraraq Ali Baş Komandanın döyüş əmrini yerinə yetirəcəksiniz", - deyə Müdafiə nazirinin təbrik məktubunda qeyd olunub.**

# "Həmrəylik, birlik, ardınca yüksək məsuliyyət" - Prezident cəmiyyətimizin pandemiya ilə sadə mübarizə düsturunu bu şəkildə ifadə etdi

## *Rasim Quliyev: "Bu bəladan xilas olma yolu həm də məsuliyyətli olmaqdan keçir"*

**Prezident İlham Əliyev iyunun 24-də 1 saylı Gəncə Şəhər Xəstəxanasının modul tipli infeksion xəstəliklər korpusunun açılışında çıxışı zamanı bildirib ki, bu vəziyyətdən şərəflə çıxmağa çalışmalıyıq:"Ancaq dövlət tərəfindən atılmış addımlar əgər kütləvi surətdə ictimaiyyət tərəfindən dəstəklənməsə, bunun xeyri olmayacaq.**

Dəstək isə nədən ibarətdir? Sadəcə olaraq, üç adi qaydanı gözləmək, buna əməl etmək və məsuliyyət, nizam-intizam göstərmək. Biz birlik, həmrəylik nümayiş etdirmişik. Çətin vəziyyətdə olan insanların problemlərini həll edirik, o cümlədən ictimai təşkilatlar, Heydər Əliyev Fondu".

Dövlət başçısı qeyd edib ki, əsas yük dövlətin üzərindədir:"Aztəminatlı təbəqəyə yardımlar edilir. Mənim təşəbbüsümlə yaradılmış Koronavirusla Mübarizəyə Dəstək Fonduna sahibkarlar, ayrı-ayrı adamlar tərəfindən 100 milyon manatdan çox vəsait daxil edilib. Bu böyük vəsaitdir və həmrəyliyin təzahürüdür. Necə ki, həmrəylik, birlik göstəririk, məsuliyyət də göstərməliyik. Bunu inkişaf etmiş bir neçə ölkənin liderləri qeyd edir ki, bu müharibədir və burada düşməni görmək mümkün deyil. Eyni zamanda, bilmək mümkün deyil, bu müharibə nə vaxt bitəcək. Bunu heç kim deyə bilməz".

Azərbaycan Prezidenti vurğulayıb ki, hər kəs peyvəndi gözləyir, o cümlədən də biz:"Amma bəzi həkimlərin fikrinə görə, peyvənd də bəlkə bu koronavirusu tam məhv edə bilməyəcək. Kim bilir? Bu peyvənd hələ icad edilməyib. Hələ bunun üzərində iş aparılır. Amma yoluxanların sayı artır, beləliklə, təhlükə də artır. Ona görə burada ancaq və ancaq vətəndaşların məsuliyyəti ön planda olmalıdır".

Göründüyü kimi, ölkə başçısı bu xəstəliklə mübarizə üçün sadə düstur təklif edib. Bildirib ki, həmrəylik, birlik, ardınca yüksək məsuliyyət riayət etməklə pandemiyaya qalib gələ bilərik. Ölkə başçısının bu təkliflindən hansı nəticələri çıxara bilərik?

Koronovirusla bağlı bir sıra araşdırmalar və sorğular keçirən "Resurs" Analitik İnformasiya Mərkəzinin rəhbəri Rasim Quliyev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Azərbaycan dövlətinin bu istiqamətdə siaysətini həyata keçirən hökumət çox ağıllı yanaşma həyata keçirir: "Söhbət epidemioloji vəziyyətlə bağlı zəruri tədbirlərin ardıcıl şəkildə görülməsindən gedir. Harda ki epidemoloji vəziyyət ağırlaşır, orda lazımi tədbirlər görülür, digər yerlərdə isə insanların hərəkəti və fəaliyyətinə şərait yaradılır. Bu amil Azərbaycanın iqtisadiyyatını da tənəzzüldən xilas edir. Əks halda biz iqtisadiyyatı çətin vəziyyətə sala bilərik.



Cənab Prezident bu istiqamətdə həm ölkəyə rəhbərlik edir, həm də cəmiyyətə nümunə nümayiş etdirir. Prezidentin addımlarında həm də böyük maariflendirmə var. Özü tibbi maskadan istifadə edir, iştirak etdiyi tədbirlərdə sosial məsafəyə riayət olunur. Ölkə rəhbərliyi bütün siyasətləri həyata keçirəndə cəmiyyətin həmrəyliyini nəzərə alır. Bu baxımdan da ölkə başçısının irəli sürdüyü bu model çox təqdirəlayiqdir. Biz həmrəy olmağı tez bacarırıq. Amma bununla yanaşı, həm də qanunlara riayət etməyə, məsuliyyətli olmağa da çalışmalıyıq. Bu bəladan xilas olma yolu həm də məsuliyyətli olmaqdan keçir. Ölkə başçısı öz çıxışlarında dəfələrlə deyib ki, dövlət əlindən gələni edir, amma bu, pandemiya ilə mübarizədə kifayət sayılmır. Ümid edirəm ki, cəmiyyətimiz bu məsləhətlərdən lazımi nəticəni çıxaracaq. Bundan başqa yolumuz da yoxdur".

Doğrudan da, bu nəticəyə gəlinir ki, pandemiya ilə mübarizə yalnız administrativ metodların tətbiqi ilə yekunlaşmır. Bunun üçün vətəndaşlarımızın məsuliyyətli və həmrəy olması gərəkdir. Hesab edirik ki, bu tövsiyələrə riayət edilsə, biz tezliklə bu virusa qalib gələ bilərik.

*Məhəmmədəli QƏRİBLİ*

# Aydın Quliyev: "Prezident İlham Əliyevin bütün fikirləri dövlətimizin pandemiya ilə mübarizə hədəflərindən bir addım da geri çəkilmədiyini göstərdi"

**Prezident İlham Əliyevin Gəncədə etdiyi çıxışlar pandemiya dövründə Azərbaycanda müxtəlif sahələrdəki real vəziyyəti qiymətləndirmək və dövlət siyasətinin bütün istiqamətlərdəki nəticələrini dəyərləndirmək üçün geniş materiallarverir. Bunu "Trend"ə açıqlamasında "Bakı-Xəbər" qəzetinin baş redaktoru, siyasi ekspert Aydın Quliyev deyib.**




Onun sözlərinə görə, bir daha bütün ictimaiyyət və dünya şahidi oldu ki, Azərbaycanın koronavirusla mübarizəsi məqsədyönlü, qabaqlayıcı, konkret hədəflərə yönəlmiş, səmərəli və praktik xarakter daşıyan sistemli bir modeldir: "Növbəti dəfə Prezident cəmiyyətə əsaslı mesajlar verdi ki, Azərbaycan cəmiyyətini və insanlarımızı dünyanın başqa bütün ölkələri ilə müqayisədə nisbətən ən yaxşı səviyyədə qoruya bilməyimiz məhz həyata keçirilən ardıcıl tədbirlərin sayəsində mümkün olub.

Prezidentin bütün fikir və mülahizələri dövlətimizin pandemiya ilə mübarizə hədəflərindən bir addım da geri çəkilmədiyini, mübarizənin zəifləmədiyini və hər gün güclənərək yeni üsul və forma axtarışları ilə təkmilləşdirildiyini nümayiş etdirdi. Hər kəs görür ki, Azərbaycanda pandemiya ilə belə ardıcıl, dinamik artan və get-gedə daha mütəşəkkil aparılan mübarizə yalnız inamdan, xalqın taleyinə və sağlamlığına olan dərin mısuliyyət hissindən yaranır.

Prezidentin "dövlət öz üzərinə düşən hər şeyi edir və edəcək" bəyanatı həm görülmüş işlərin hüquqi məzmununa, həm də bu mübarizə kursunun inamla davam etdiriləcəyinə yetərli təminat yaradır".

Baş redaktor bildirib ki, karantin qaydalarının sərtləşdirilməsinin zəruriliyi barədə Prezidentin sözləri vətəndaşlarımızı daha məsuliyyətli olmağa yönəltmək baxımından təsirlidir: "Çünki qaydaların sərtləşdirilməsinin zəruriliyini göstərən əsaslar və səbəblər Prezident tərəfindən səmimi, detallı və ictimai yanğı ilə izah edildi.

Diqqətçəkən məqamlardan biri odur ki, Prezident pandemiya ilə mübarizənin daha səmərəli nəticələr verməsi üçün dövlət nəzarəti ilə ictimai qınaq üsullarının birləşdirilməsinin güclü bir vasitə olduğunu dəqiq ifadə etdi. Həqiqətən də hər bir vətəndaş Prezidentin dediyi haqlı iradlardan təmkinli nəticə çıxarmalı və özünə sual verməlidir ki, küçələrdə maska taxmayan, məsafə saxlamayan bir vətəndaşa niyə bunu irad tutmasın və belə davranışın hamı üçün təhlükəli olduğunu xatırlatmasın?!

Prezident Azərbaycan cəmiyyətinə pandemiya ilə mübarizənin bundan sonrakı vəziyyətinin məhz əsasən insanların davranışlarından asılı olacağını aydın şəkildə göstərdi. "Maska taxmaq nə çətin məsələdir" formasında Prezidentin göstərdiyi yol hər kəsin nəticə çıxarmalı və əməl etməli olduğu çıxış yoludur.

Karantin qaydalarının və cəzaların sərtləşdiriləbiləcəyi barədə Prezidentin xəbərdarlığı cəmiyyəti daha məsuliyyətli olmağa və birlik nümayiş etdirməyə yönəldir. Eyni zamanda, cəmiyyətimizi qorumaq üçün daha sərt qaydaların tətbiq oluna biləcəyini göstərir.

Hətta ən ağır vəziyyətdə belə Prezident dövlətimizin sosial strategiyasının dəyişilməz qalması üçün gərəkli olan hər şeyin ediləcəyini bir daha hamıya söylədi. Prezidentin "pandemiyanın hansı vəziyyətdə olmasından adılı olmayaraq, ilin sonunadək əhalinin sosial vəziyyəti dəyişməyəcək" fikri həm inamdan, həm də seçilmiş sosial strateji xəttin davam etdiriləcəyindən xəbər verir".

**Nazirlər Kabineti yanında Operativ Qərargah koronavirusla bağlı KİV nümayəndələri üçün brifinq keçirib. "Trend"-in məlumatına görə, brifinqdə ÜST-ün Azərbaycandakı nümayəndəliyinin rəhbəri Hande Harmancı, TƏBİB-in xəstəliklərin profilaktikası və kontrolu şöbəsinin müdiri Yaqut Qarayeva və BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Qulam İshaqzai jurnalistləri maraqlandıran suallara cavab verib.**

# Son günün dəhşətli yoluxma rəqəmləri - vətəndaş məsuliyyətsizliyi Operativ Qərargahı daha sərt qərarlar qarşısında qoydu...




### Evlərdə, parklarda bir araya toplanırıqsa, xəstəliyin qarşısını ala bilməyəcəyik…

Yaqut Qarayeva deyib ki, bəzi vətəndaşlar artıq koronavirusun çox ciddi xəstəlik olduğunu hiss etməyə başlayıblar. Onun sözlərinə görə, bəzi insanlar sərt karantin olsa da yenə arxa küçələrdə toplaşır və maskadan istifadə etmirlər: "Hər bir vətəndaş dərk etməlidir ki, bu xəstəlik ağır keçir. Bəziləri uşaqları küçələrə buraxırlar. Buna nəzarət olunmalıdır. Vətəndaşlar parklarda 10 nəfərdən çox bir yerə toplanmasın. Əgər qaydalara əməl etsək, bu xəstəlikdən qoruna bilərik. İstər evlərdə, istər parklarda bir araya toplanırıqsa, xəstəliyin yoluxmasının qarşısını ala bilməyəcəyik və yoluxma sayı daha da artacaq".

### Evdə müalicə olunanlara - həkimin icazəsi olmadan özbaşına dərman istifadə etməyin

Y.Qarayeva deyib ki, TƏBİB-in istifadə etdiyi dərmanlar evdə müalicə üçün hazırlanıb və paylanıb. Onun sözlərinə görə, evdə yalnız simptompsuz olan xəstələrin müşahidə altına alınması nəzərdə tutulub: "Bizim istifadə etdiyimiz dərmanlar simptomları olan şəxslər üçündür: "Evdə öz-özünə müalicə olunan şəxslərdən xahiş edirik, həkimin icazəsi olmadan özbaşına dərman alıb istifadə etməsinlər. Bu zərərlə nəticələnə bilər".

### Bəziləri elə bilirlər ki, maskanı taxmamaqla kimisə aldadırlar, amma bilmirlər ki...

Y.Qarayeva qeyd edib ki, TƏBİB yalnız tibb müəssisələrinə nəzarət edir. İnsanların maska taxmasına nəzarət edə bilmir.

Onun sözlərinə görə, maskadan istifadəyə nəzarət səlahiyyəti qurumun səlahiyyətində deyil: "Biz maska taxmaları üçün vətəndaşlara müraciət edirik, amma onlara nəzarət etmək səlahiyyətində deyilik. Bəzi vətəndaşlar elə bilirlər ki, maskanı taxmamaqla kimisə aldadırlar. Amma bilmirlər ki, maska taxmaqla özlərini və ətrafdakıları qoruyurlar.

Qaydalar sərtləşdikcə vəziyyət gərginləşir. Marketlərdə hər kəsin üzərinə bir polis qoya bilmərik. Bunun üçün ictimai qınaq olmalıdır. Ona görə də maskasız olan vətəndaşlar qınaq obyektinə çevrilməlidir".

### Bir müddət özümüzü yaxınlarımızdan da təcrid etməliyik

"Fevralın sonundan etibarən xaricdən ölkəyə virusun gəlməsinin qarşısını aldıq. Amma virus ölkəyə daxil olandan sonra yayılmağa başladı" deyən Y.Qarayevanın sözlərinə görə, bunun üçün sərhədlərimiz nəzarətə götürüldü:"Avropa ölkələrində bu virus yayılanda biz bunun qarşısını sərhədləri nəzarətə götürməklə ala bildik. Amma ölkədə vətəndaşlar qaydalara riayət etmədiyi üçün xəstəlik yayıldı.

Bu virus insandan insana yayılır. Ona görə də biz bir müddət özümüzü hətta yaxınlarımızdan da təcrid etməliyik".

### TƏBİB-dən xəbərdarlıq - xüsusi karantin rejimi yenidən sərtləşdirilə bilər

TƏBİB-in şöbə müdiri bildirib ki, əgər koronavirusa yoluxma çoxalarsa, xüsusi karantin rejimi yenidən sərtləşdirilə bilər. Onun sözlərinə görə, ölkədə karantin qaydalarının sərtləşdirilməsi cəmiyyətdən asılıdır: "Əgər yoluxma çoxalarsa, xüsusi karantin rejimi yenidən sərtləşdirilə bilər. Biz sərtləşməyə getmək istəməsək də vəziyyət buna şərait yarada bilər".

### Xroniki xəstələr özlərini təcrid etməli və daha ciddi qorunmalıdırlar

Y.Qarayeva səhhətində xroniki xəstəlik olanlar risq qrupuna aiddirlər. Onun sözlərinə görə, vərəm və digər xəstəliyi olanlar özlərini qorumalıdırlar: "Çünki bu xəstəlik hava-damcı yolu ilə yayılır. Ona görə də onlar toplu insanlar olan yerə getməməlidirlər. Biz bütün tibb müəssisələrini bağlayıb COVİD xəstəxanası edə bilmərik. Bəs onda bizim xroniki xəstələrimizin müalicəsi necə olacaq?! Ona görə də xroniki xəstələr özlərini təcrid etməli və daha ciddi qorunmalıdırlar".

### BMT: Pandemiya ilə mübarizədə Azərbaycanın yanındayıq

BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Qulam İsaqzai isə bildirib ki, koronavirus pandemiyası ilə mübarizədə biz Azərbaycanla əməkdaşlıq edirik və Azərbaycanın yanındayıq. O qeyd edib ki, BMT Azərbaycana texniki yardım göstərir və bu sahədə bilikərin artırılmasında dəstək olur: "Biz müxtəlif istiqamətlərdə dövlət strukturlarının biliklərinin artırılmasında iştirak etmişik".

Q.İsaqzai vurğulayıb ki, pandemiyanın yaratdığı təhlükə İkinci Dünya Müharibəsindən sonra bəşəriyyətin üzləşdiyi ən böyük təhlükədir: "Bu virusa qarşı mübarizə qlobal həmrəylik və əməkdaşlıq tələb edir, eyni zamanda ölkə daxilində bütün vətəndaşların həmrəylik göstərməsi vacibdir. Hökumətlər cəmiyyətin hər bir üzvünün iştirakı olmadan bu pandemiyaya qalib gəlmək imkanında deyillər. Bu virusa qalib gəlmək üçün cəmiyyətin hər bir üzvü öz məsuliyyətini dərk etməli və üzərinə düşən vəzifəni yerinə yetirməlidir. Bu virusa qalib gəlməsək, ölkələrdə iqtisadiyyatın bərpası mümkün olmayacaq".

Q.İsaqzai vurğulayıb ki, Azərbaycanda sosial-iqtisadi vəziyyətin bərpası ilə bağlı İqtisadiyyat Nazirliyi ilə danışıqlar aparılır.

### Koronavirusa qarşı peyvənd nə zaman hazır olacaq...

ÜST-ün Azərbaycandakı nümayəndəliyinin rəhbəri Hande Harmancı isə deyib ki, pandemiyanın sürəti getdikcə artır. Avropada vəziyyət yaxşılığa doğru getsə də, qlobal vəziyyət ürəkaçan deyil. Onun sözlərinə görə, artıq bir peyvənd sınaq mərhələsindədir. 2020-ci ilin sonuna kimi bu peyvəndin əlçatan ola biləcəyi gözlənir.

H.Harmancı əlavə edib ki, bu yaxınlarda Azərbaycana yeni fərdi qoruyucu vasitələr gətirilib. Bundan sonra ölkəyə daha iki partiya qoruyucu vasitələr gətiriləcək.

### Son 14 gündə yoluxma sayında 50 faiz artım...

H.Harmancı bildirib ki, son 14 gündə Azərbaycanda COVİD-19-a yoluxma sayında 50 faiz artım olub. Onun sözlərinə görə, hazırda ən vacib tədbir fiziki məsafənin qorunmasıdır: "Mən COVİD-19-un təhlükəsini dərk edən insanlara müraciət edərək demək istəyirəm ki, bilgilərinizi yalnız özünüz üçün saxlamayın. Bu barədə digər insanlara da məlumat verin".

Qeyd edək ki, 21 iyun saat 00:00-dan Bakı, Sumqayıt, Gəncə, Lənkəran, Yevlax, Masallı, Cəlilabad şəhərlərinin və Abşeron rayonunun ərazisində xüsusi karantin rejiminin sərtləşdirilməsi tətbiq edirlir. Sərtləşdirilmiş xüsusi karantin rejimi 5 iyul saat 06:00-dək davam ediləcək.

## Azərbaycanda daha 547 nəfər koronavirusa yoluxdu, 291 nəfər sağaldı, 6 nəfər vəfat etdi

**Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına 547 yeni yoluxma faktı qeydə alınıb, 291 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan baki-xeber.com-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 6 nəfər vəfat edib. İndiyədək ölkədə ümumilikdə 14 852 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 8 059 nəfər müalicə olunaraq sağalıb, 180 nəfər vəfat edib, 6 613 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir. Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 7 274, ötən müddət ərzində isə ümumilikdə 449 235 test aparılıb.

# Prezident indi milli təhlükəsizliyimizin həm də rəhbər post tutanlardan və imkanlı şəxslərdən çox asılı olduğunu dəqiq söylədi

## *Asif İbrahimov: "Yeri gəlsə, iri ticarət mərkəzləri öz müştərilərinə pulsuz maska da paylamalıdır"*

**Prezident İlham Əliyev Gəncə şəhərində modul tipli xəstəxananın açılışından sonra bir qrup tibb işçisi ilə görüşündə bildirib ki, bütün dünya virusdan əziyyət çəkir və xəstələrin sayının kəskin artması bir çox ölkələrin səhiyyə sisteminə də böyük zərbə vurub.**

Ölkə başçısı çıxışında rəhbər və imkanlı şəxslərin məsuliyyət məsələsinə də toxunub.

Prezident bildirib ki, idarələrdə idarə rəhbərləri görəndə ki, işçisi maska taxmır, əlbəttə, tədbir görməlidir, dərhal reaksiya verməlidir, müvafiq qurumlara məlumat verməlidir:"Əgər belə davam edərsə, mən deyəcəyəm ki, cərimələrin həcmini artırsınlar. Çünki indi böyük imkanlara sahib olan adamlar nə üçün 50 manat, 100 manat cərimə verirlər? O çıxır, maşınına oturur, hara istəyir gedir. Tutaq ki, onu saxladılar, saxlamadılar, onu da hələ bilmək olmur. Çünki hər kəsi saxlamaq da mümkün deyil. Cəriməni verir gedir, sonra istədiyini edir. Ona görə mən tapşırıq vermişəm ki, dövlət orqanları, yerli icra orqanları, hüquq-mühafizə orqanları tərəfindən bu məsələyə daha ciddi nəzarət olmalıdır. Çünki bu, milli təhlükəsizlik məsələsidir".

Dövlət başçısı bildirib ki, inkişaf etmiş ölkələrdə vəziyyət böhran həddinə çatıb:"İndi görün inkişaf etmiş ölkələrdə nələr baş verir. Vəziyyət tamamilə böhran həddinə çatıb. O ölkələrin ki, dövlətçilik ənənələri yüzilliklərlə ölçülür və o ölkələrin səhiyyə sistemi dünyada nümunə kimi təqdim olunur, onlar da bacarmırlar, çünki bu mümkün deyil. Ona görə mənim bu sözlərim, hesab edirəm, hər kəs üçün əsas olmalıdır, həm vətəndaşlar üçün, - onlar daha məsuliyyətli olmalıdırlar, - həm də vəzifə tutanlar, dövlət məmurları üçün. Dövlət nəzarəti, ictimai nəzarət, vətəndaşların nizam-intizamı və məsuliyyəti artmalıdır. Əgər biz görsək ki, nizam-intizam bundan sonra da pozulur, onda fikirləşərik, daha hansı təsirli addımlar atılsın ki, bu qaydaları pozanlara qarşı daha ciddi tədbirlər görülsün".

Göründüyü kimi, ölkə başçısı çıxışında vəzifəli və imkanlı şəxslərin də məsuliyyət payının hansı dərəcədə olmasına və onlara nəzarətin vacibliyinə toxunub. Bu təbəqəyə yönələn iradların aradan qaldırılması hansı nəticələri verə bilər?



Beynəlxalq standartlaşdırma üzrə mütəxəssis Asif İbrahimov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Azərbaycanda koronavirusun qarşısının alınması ilə bağlı qərarlar verilərkən indiyədək əldə edilən statistika ciddi təhlil edilməli, bütün məqamlar nəzərə alınmalıdır:" Ölkə başçısı bu xüsusda olduqca vacib detallara toxundu. Xüsusilə də ictimai nəzarətin olmasının zəruriliyini diqqətə çatdırdı. Razıyam ki, bu isiqamətdə qurum rəhbərləri və imkanlı adamların da üzərinə ciddi məsuliyyət düşür. Azərbaycanda əhali üçün koronavirusdan qorunmaq məqsədilə detallı davranış qaydaları da hazırlanmalıdır, ilk baxışdan xırda görünən məsələlər nəticələrə ciddi təsir edə bilər. Son 3 gün ərzində Azərbaycanda COVİD-19 virusuna yoluxanların sayı iki minə yaxınlaşıb. Yoluxmaların sayında müşahidə olunan intensiv artım onu göstərir ki, biz hardasa səhv edirik. Deməli, ciddi uyğunsuzluqlarımız mövcuddur.

Beynəlxalq idarəetmə standartlarının fəlsəfəsinə görə, uyğunsuzluqların aradan qaldırılması prosesi həyata keçirilərkən həmin uyğunsuzluğun özünə deyil, onun səbəbinə, kök nədəninə diqqət yetirmək lazımdır. Onu da deyim ki, səhvlərimizi dilə gətirməkdən çəkinməməli, onları gizlətməyə çalışmamalıyıq. Çünki harda həyat var, insan var, fəaliyyət var, orda nöqsanların olması normal haldır və bu olmalıdır. Lakin bizim öhdəmizə düşən aşkarlanan uyğunsuzluqları gizlətmək deyil, vaxtında müəyyən edib, aradan qaldırmaqdır.

Sanitariya və gigiyena sahəsində beynəlxalq standartların tələblərindən və beynəlxalq praktikalardan istifadə etməli, gündəlik həyatımızı buna uyğunlaşdırmalıyıq. Yaşadığımız, işlədiyimiz, bütün istifadə etdiyimiz məkanları steril mühitə çevirməliyik. Sahə həkimlərinin fəaliyyətini stimullaşdırmalı, onların qapı-qapı düşüb müalicə zərurəti olan vətəndaşlarımızın müəyyən edilməsində bizə yardımçı olmasını təmin etməliyik. Ajiotaj yaratmamaq naminə, verdiyimiz qərarları ciddi təhlillər apardıqdan sonra ictimaiyyətə bəyan etməliyik. İnsanların özümüzə inamını təmin etməliyik. Məsələn, 2 günlük sərt karantin rejimləri tətbiq edərək verdiyimiz bir qərarla 1000 kvm-lik dükana 1500 nəfəri toplaya bildik. İnsanların, böyük ehtimalla, içlərində xəstəlik daşıyıcıları olan insanların ölkəmizin digər bölgələrinə axın etməyinə şərait yaratdıq. Daha öncə bu situasiya ilə üz-üzə qalmadığımıza baxmayaraq, artıq əlimizdə 4 ayı əhatə edən statistika mövcuddur. Bu statistikaya nəzər yetirərək, harda səhv etdiyimizi anlaya bilərik. Bəli, bir çox rəhbər şəxslər və iş adamları tövsiyələrə əməl etmir. Çox adam yalnız öz qazancını düşünür. Yeri gəlsə, iri ticarət mərkəzləri öz müştərilərinə pulsuz maska da paylamalıdır. Əgər əhali bir marketə axın edirsə, niyə orada yalnız qazanc düşünülməlidir? Bəs sosial məsuliyyət? Hər bir imkanlı şəxs, iş adamı bilməlidir ki, bu artıq sadə məsələ deyil. Ölkə başçısının ifadə etdiyi kimi, təhlükəsizlik məsələsidir. Hamılıqla diqqətli olub hökumətin müəyyən etdiyi qaydalara riayət etsək, irəliləyiş olar".

Belə nəticəyə gəlinir ki, belə vəziyyətdə kimlərsə sosial vəziyyətindən, imkanlı olmağından istifadə edib qaydaları pozmaqla yalnız inzibati xətaya yol vermiş olmur, eyni zamanda dövlətimizin təhlükəsizliyinə zərər vermiş olur. Bunun üçün də hamılıqla məsuliyyətli olmamız gərəkdir.

***Məhəmmədəli***
***QƏRİBLİ***

**Prezident İlham Əliyev 1 saylı Gəncə Şəhər Xəstəxanasının modul tipli infeksion xəstəliklər korpusu ilə tanışlıqdan sonra çıxışında bildirib ki, koronavirus pandemiyasının miqyasından asılı olmayaraq, ilin sonuna qədər insanların yaşayış səviyyəsi dəyişməz olaraq qalmalıdır:**

# Sosial rifaha yönəlik siyasət pandemiyanın vəziyyətindən asılı olmayaraq dəyişməyəcək - Prezident ilin sonunadək strategiyanı belə müəyyən etdi

## ***Fuad İbrahimov:** "Hökumət nə mümkündürsə onu edir ki, insanların sosial vəziyyəti, yaşayış səviyyəsi mənfi təsirə məruz qalmasın"*



"İqtisadiyyat tənəzzülə uğrayır və hələ bəlli deyil ki, ilin sonuna qədər bizi hansı problemlər gözləyir. Hər kəs bunu bilməlidir. Eyni zamanda, dünya bazarlarında neftin qiyməti hələ də sabitləşməyib. Bir neçə önəmli iqtisadi sahə demək olar ki, fəaliyyətsiz qalıb. Bir neçə başqa sektor artıq uzun müddətdir ki, fəaliyyətsizdir. Dövlət o sektorların və orada çalışan insanların problemlərini öz üzərinə götürübdür. Biz indi 600 mindən çox insanı lazım olan vəsaitlə təmin edirik və 190 manatın verilməsi müddəti uzadıldı, baxmayaraq ki, bu da böyük yükdür və böyük xərclər deməkdir. Amma biz bunu edirik. Çünki işini itirmiş, yaxud da ki, aztəminatlı təbəqəyə aid olan, hətta qeyri-rəsmi şəkildə işləyən insanlar faktiki olaraq çətin vəziyyətdə qalıblar və kim onlara kömək edəcək?! Azərbaycan dövləti hər zaman Azərbaycan vətəndaşının yanındadır. Ona görə həm birinci mərhələdə - sərtləşdirilmiş məhdudlaşdırıcı tədbirlər tətbiq olunanda və bu gün biz məcbur olub növbəti dəfə bu addımlara getdik, şəxsən mənim üçün seçim yox idi. İlk növbədə, insanların həyatı və onların sağlamlığıdır.

Heç bir sosial layihə ixtisar edilməyib. Mən demişəm ki, sosial sahədə heç bir ixtisar olmayacaq. Hesab edirəm ki, koronavirus pandemiyasının miqyasından asılı olmayaraq, ilin sonuna qədər insanların yaşayış səviyyəsi dəyişməz olaraq qalmalıdır".

Bu əslində Azərbaycanın bu ilin sonunadək sosial siyasətinin əsas strategiyasıdır. Yəni, vəziyyət nə qədər mürəkkəb olsa da insanların sosial rifahının təmin edilməsi ön plandadır. Bütövlükdə bu strategiyanın əhəmiyyətini ekspertlər necə dəyərləndirir?

*"Bir sıra qonşu ölkələrlə müqayisədə Azərbaycanda bu istiqamətdə kifayət qədər ciddi işlər görülür"*

Məsələyə münasibət bildirən iqtisadçı-ekspert Fuad İbrahimovun sözlərinə görə, hökumət əlindən gələni edir ki, pandemiya əhalinin sosial durumuna ciddi mənfi təsir göstərməsin: "Prezident İlham Əliyev daim bu məsələni ciddi nəzarətdə saxlayır. Bununla bağlı onlayen rejimdə müvafiq qurumlara göstərişlərini verir. İstər özəl, istərsə də dövlət sektorunda çalışanlara yardım edilir. Bütün istiqamətlərdə proqramlar qəbul olunub, komissiyalar, işçi qruplar yaradılıb. Mərhələli şəkildə bu proses gedir və müəyyən yardımlar da edilir. Bütün çətinliklərə baxmayaraq ölkə rəhbərliyi daimi formatda bu işləri nəzarətdə saxlayır.

**Hökumət bu istiqamətdə nə mümkündürsə onu edir ki, insanların sosial vəziyyəti, yaşayış səviyyəsi mənfi təsirə məruz qalmasın. Bir sıra qonşu ölkələrlə müqayisədə Azərbaycanda bu istiqamətdə kifayət qədər ciddi işlər görülür. Görünən odur ki, ili sonuna qədər bu strategiya dəyişməyəcək".**

Bütün bunlar Azərbaycanda hökumətin əhalinin sosial vəziyyətinə nə qədər xüsusi önəm verməsinin əyani göstəricisidir.

***Vidadi ORDAHALLI***

---

**Məlum olduğu kimi, Ermənistan parlamenti konstitusiyaya dəyişikliklər barədə qanun layihəsini qəbul edib. Konstitusiya dəyişikliklərinə əsasən, Konstitusiya Məhkəməsində 12 ildən çox işləmiş hakimlər azad edilir. Digər hakimlər isə 12 illik müddət başa çatdıqdan sonra azad ediləcək.**

# Ermənistan Konstitusiya məhkəməsi parlamentə və baş nazirə daha qəti "asi oldu" - İkihakimiyyətlik dərinləşir

## ***Mübariz Əhmədoğlu:** "Bu artıq ölkənin xaosa yuvarlanması deməkdir"*



Konstitusiya dəyişiklikləri üçün əvvəlcə referendum nəzərdə tutulsa da, koronavirus pandemiyası ilə əlaqədar bunun parlament daxilində həyata keçirilməsi qərarı verilib. Bu düzəlişlər Konstitusiya Məhkəməsinin hakimlərini vəzifələrindən kənarlaşdırmaq imkanı yaratmaqla yanaşı, dolayısı ilə baş nazir Nikol Paşinyanın ölkəyə nəzarətini artırmış olur.

Bu arada Ermənistan Konstitusiya Məhkəməsi açıqlama yayaraq sözügedən qərarı tanımadıqlarını bəyan ediblər. Bununla bağlı deyilir: "Biz, Konstitusiya Məhkəməsinin hakimləri, həm Ermənistan, həm də beynəlxalq qurumların öz mövqelərini bildirdikləri Konstitusiya Məhkəməsi ilə bağlı baş verən son hadisələrdən dərin narahatlığımızı bildiririk. Bütün dövlət orqanlarını hərəkət və qərarlarında yalnız Konstitusiya rəhbərliyinə tabe olmağa çağırırıq. Konstitusiya Məhkəməsi Konstitusiyanın aliliyini təmin edərək səlahiyyətlərini adi qaydada həyata keçirməyə davam edir".

Müraciəti sözügedən məhkəmənin hakimləri Hrayr Tovmasyan, Alvina Gyulumyan, Feliks Tohyan, Araik Tunyan, Aşot Xaçatryan, Hrant Nazaryan, Arevik Petrosyan imzalayıb.

Bu, faktiki olaraq Ermənistanda ikihakimiyyətliliyin dərinləşməsi deməkdir. Çünki Konstitusiya Məhkəməsi əvvəlki formada fəaliyyətlərini davam etdirəcəklərini bəyan ediblər. O baxımdan ölkədə yaranan ikihakimiyyətliliyi ekspertlər nrcə dəyərləndirir?

Məsələyə münasibət Siyasi İnnovasiyalar və Texnologiyalar Mərkəzinin rəhbəri Mübariz Əhmədoğlunun sözlərinə görə, bu gün Ermənistanda yaşananlar ölkəni xaosa aparır: "Sözügedən qərar əslində Ermənistanın konstitusiya quruluşunun devrilməsinin bünövrəsini qoydu. Burada əsas məqam odur ki, konstitusiya ilə bağlı qanunları parlamentin spikeri Ararat Mirzəyan imzalayacaq. Əvvəlki kimi prezident imzalamayacaq. Bu isə o deməkdir ki, Paşinyan Konstitusiyaya istənilən dəyişiklyi edəcək. O cümlədən Konstitusiya Məhkəməsi ilə bağlı.

*"Konstitusiya Məhkəməsi və yaxud da ayrı-ayrı partiyalar parlamentin bu qərarını məhkəməyə verib məsələni Avropa..."*

Bu, konstision quruluşun dəyişdirilməsi deməkdir. Eləcə də bu artıq ölkənin xaosa yuvarlanması deməkdir. Nəzərə almaq lazımdır ki, Konstitusiya Məhkəməsi bu qərarı tanımır. Bütün bunlarla yanaşı, ölkədə 10-dan artıq partiya buna qarşı çıxaraq qrup yaradıb. Bəyan edirlər ki, Paşinyana qarşı mübarizə aparacaqlar. Bu isə xaos deməkdir. Ermənistanın konstitusiyasına görə, Konstitusiya Məhkəməsi və yaxud da ayrı-ayrı partiyalar parlamentin bu qərarını məhkəməyə verib məsələni Avropa İnsan Hüquqları Məhkəməsinə qədər çıxarmaq hüququ var. Bu zaman Ermənistan parlamentinin qəbul etdiyi qərar qüvvəyə minməmiş hesab olunacaq. Belə vəziyyət isə sözügedən dəyişikliklərə qarşı olan partiyalara əlavə stimul verəcək".

**Belə görünür ki, sözügedən dəyişiklikləri başa çatdırmaq Paşinyana asan başa gəlməyəcək. Bəlkə də o bunu reallaşdıra bilməsin.**

***Vidadi ORDAHALLI***

# Azərbaycanda dövlət virusla mübarizədə nə lazımsa edib - cəmiyyət də dövlət kimi məsuliyyətli olsaydı...

***Şakir Ağayev:** "Vətəndaşlar zamanında məsuliyyətli davransaydılar, biz indi bu acı mənzərənin şahidi olmazdıq və virusla vidalaşmışdıq"*



*"...öz məsuliyyətini dərk edərək, bu bəlanın azalmasına səbəb olsunlar"*

**Azərbaycan dövlətinin koronavirusla mübarizə strategiyası tamamilə yeni, təkmil və faydalı bir platforma kimi bütün dünyaya nümunə olub. Mübaliğəsiz deyə bilərik ki, dövlət bu istiqamətdə bütün vacib və gərəyi olan tədbirləri böyük qayğı ilə, məsuliyyətlə həyata keçirib və keçirməkdə də davam edir.**

Başdan görülən qabaqlayıcı tədbirlər, virusun yayıldığı dövrdə həyata keçirilən hərtərəfli işlər buna nümunədir. Proses vətəndaşların və dünyanın gözləri qarşısında həyata keçirildiyi və bu barədə kifayət qədər deyildiyi, danışıldığı üçün, detallara varmaq istəmirik. Fakt budur ki, Azərbaycan dövləti koronavirusla mübarizə istiqamətində həyata keçirdiyi bütün tədbirləri vətəndaşlarımızın sağlamlığının qorunması və virusdan çəkəcəyimiz zərərin minimuma endirilməsi naminə edib. Amma təəssüf ki, bir sıra vətəndaşların məsuliyyətsizliyi üzündən koronavirusla mübarizədə hələ də qalib gələ bilməmişik. Amma məsuliyyətimizi daha da artırsaq, səhlənkarlığımızı unutsaq və dövlətin qoyduğu qayda-qanunlara əməl etsək, inanırıq ki, tezliklə virusla mübarizədən qalib çıxan xalqlardan, dövlətlərdən biri və birincisi kimi adımızı bəşər tarixinə yazdıracağıq.

Prezident İlham Əliyev iyunun 24-də 1 saylı Gəncə Şəhər Xəstəxanasının modul tipli infeksion xəstəliklər korpusunun açılışında etdiyi çıxış zamanı dövlətin koronavirusla mübarizə istiqamətində bütün mümkün tədbirləri həyata keçirdiyini və bundan sonra da keçirəcəyini bir daha bəyan edib. "....Dövlət nə lazımdırsa, onu edir. Bundan artıq nəsə etmək mümkün deyil. Çünki nə lazım idisə, biz onu etmişik və edəcəyik. Bu məqsədlər üçün istənilən vəsaiti xərcləməyə hazırıq, vəsaitimiz də var və heç kimdən də asılı deyilik" - deyə ölkə başçısı nitqində bildirib.

Prezidentin də nitqində bir daha qeyd etdiyi və bizim də gördüyümüz, şahidi olduğumuz kimi, dövlət koronavirusla mübarizə üçün nə lazımdısa edib və edir də. Bu halda, həqiqətən, cəmiyyət də dövlət kimi məsuliyyətli olsaydı, indi hansı nəticələrimiz olardı?

"Novoye vremya" qəzetinin baş redaktoru, tanınmış siyasi icmalçı Şakir Ağayev "Bakı-Xəbər"ə bildirdi ki, əgər vətəndaşlar dövlət kimi məsuliyyətli davransaydı və öz üzərinə düşən sadə vəzifəni icra etsəydilər, virusla bağlı vəziyyət bu dərəcədə kəskin olmazdı, yoluxanların sayı günü-gündən artmazdı. "Virusla bağlı təhlükəli vəziyyət artıq o həddə çatıb ki, cənab Prezident bununla bağlı narahatlığını açıq şəkildə cəmiyyətə, vətəndaşlara çatdırdı. Ölkə başçısı pandemiyanın təhlükəli hal aldığını cəmiyyətə çatdırmaqla, vətəndaşları bir daha məsuliyyətli olmağa çağırdı. Vətəndaşlar cənab Prezidentin çıxışından nəticə çıxarmalı və məsuliyyətlərini artırmalıdırlar. Əgər yadınızdadırsa, sizin qəzetdə bizim bu məsələ ilə bağlı dəfələrlə söhbətimiz olub. Yenə də qeyd edirəm ki, insanlar, vətəndaşlar məsuliyyətli olmasalar və öz üzərlərinə düşən vətəndaş məsuliyyətini dərk etməsələr, hər kəs evində, ailəsində, küçəsində, binasında bu virusla qarşılaşacaq. Bir sıra insanlar bu virusa yoluxana, yaxud yaxınları tutulana qədər virusun olduğuna inanmırdılar. Amma indi inanmağa başlayıblar. Bilirsiniz ki, ölkəmizdə dövlətin gördüyü tədbirlər nəticəsində virusa yoluxanların sayı çox az idi və vətəndaşlar həmin zaman məsuliyyətli davranmalı idilər ki, sonradan virus yayılmasın. Çox təəssüf ki, cəmiyyətin bir xeyli hissəsi pandemiyaya qeyri-ciddi yanaşdı və onların məsuliyyətsizliyi nəticəsində isə mövcud səhnə ilə üzləşdik. Pandemiya ilə bağlı mövcud olan sərt karantin rejiminin qaydaları çox sadə idi. Vətəndaşdan maska taxmaq, sosial məsafə saxlamaq, sanitar-gigiyena qaydalarına əməl etmək tələb olunurdu. Ağrılı hal ondan ibarətdir ki, vətəndaşlarımız buna biganə yanaşdılar, sərt karantin rejimi yumşalan kimi küçələrə, parklara, restoranlara, açılan ticarət mərkəzlərinə, mağazalara, yarmarkalara axışdılar. Onların, lazım oldu-olmadı, etdikləri bu hərəkətlər indiki duruma gətirib çıxardı. Vətəndaşlar zamanında məsuliyyətli davransaydılar, biz indi bu acı mənzərənin şahidi olmazdıq və virusla vidalaşmışdıq. Lakin belə olmadı. Prezidentin də qeyd etdiyi kimi, bu, ilk növbədə, insanların sağlamlığını təhlükə altına atdı, ikinci növbədə, ölkənin iqtisadi, maliyyə vəziyyətini ağır duruma saldı. Dövlət hər şeyi edir. Amma vətəndaş məsuliyyətsizliyinə görə vəziyyət istər sağlamlıq, istərsə də iqtisadi və maliyyə cəhətdən çətinləşərsə, vəziyyət daha da ağırlaşa bilər. Cənab Prezident bunu Gəncədə qeyd edib".

Bir daha Azərbaycan vətəndaşlarını məsuliyyətli olmağa səsləyən Ş.Ağayev qeyd etdi ki, əhali hər şeydən əvvəl məsuliyyətli olarsa, dövlətin bu istiqamətdə gördüyü işlərin nəticəsi daha da effektiv olar. "Cənab Prezidentin söylədiyi kimi, ölkə vətəndaşları üç şərtə əməl etməlidir. Yəni vətəndaşlar maskadan istifadə etməli, ara məsafəsi saxlamalı və dezinfeksiya işləri görməlidirlər. Bu qaydalara vaxtında əməl etsəydik, məsuliyyətli olsaydıq, koronavirus bəlasından çoxdan xilas olmuşduq. Görürsünüz ki, başqa yerlərdə vəziyyət yaxşılaşdığı halda, bizdə vətəndaş məsuliyyətsizliyi nəticəsində durum getdikcə ağırlaşır.

Hesab edirəm ki, heç olmasa, vətəndaşlar, cəmiyyət indən sonra dövlətin üzərinə götürdüyü məsuliyyətin bir hissəsini öz üzərinə götürüb, öz məsuliyyətini dərk edərək, bu bəlanın azalmasına səbəb olsunlar. Əgər vətəndaşlar indi öz məsuliyyətlərini anlayıb, üzərlərinə düşən vəzifəni görsələr, bu virusun səngiməsinə, azalmasına yardımçı olacaqlar" - deyə Ş.Ağayev vurğuladı.

**Ekspertin də mövqeyindən məlum oldu ki, virusun azalması, tamamilə yox olması istiqamətində vətəndaşlar da, cəmiyyət də dövlətin məsuliyyətini bölüşməlidir. Bu amil bizi xalq və dövlət olaraq görünməz düşmənlə mübarizədə məğlub deyil, qalib edəcək.**

***İradə SARIYEVA***

**ABŞ Dövlət Departamentinin terrorizmlə bağlı 2019-cu il üzrə hesabatında Azərbaycan hökumətinin ölkənin quru və dəniz sərhədlərində və Cənubi Qafqaz daxilində insanların, pulların və materialların hərəkəti üzrə terror cəhdlərinin qarşısını almaq, aşkar və məğlub etmək üçün fəal iş apardığı qeyd edilir.**

# Daxilimizdə və Cənubi Qafqazda Azərbaycanın terrorla effektli mübarizəsinə ABŞ-dan böyük obyektiv qiymət...




Hesabatda bildirilir:"Azərbaycanın hüquq-mühafizə və xüsusi xidmət orqanları terror aktlarının qarşısını almaq üçün əməliyyatlar keçirib, terrorda şübhəli bilinən şəxsləri həbs edib və cinayət məsuliyyətinə cəlb edib. 2019-cu ildə Azərbaycanda heç bir terror aktı qeydə alınmayıb".

Qeyd edilir ki, Azərbaycanın hüquq-mühafizə orqanları və təhlükəsizlik xidmətləri ölkədə terror aktlarını aşkar etmək, saxlamaq və qarşısını almaq üçün adekvat bacarıq nümayiş etdirib:"Azərbaycanın hüquq-mühafizə orqanları və təhlükəsizlik xidmətləri bir-biri ilə və regional və beynəlxalq tərəfdaşlarla terrorizmlə bağlı məsələlər üzrə məlumat mübadiləsi aparırlar. 2019-cu ildə Azərbaycan "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2017-2019-cu illər üçün Milli Fəaliyyət Planı"nın icrasını davam etdirib".

ABŞ Dövlət Departamenti bildirir ki, Azərbaycan Avropa Şurasında, ATƏT-də, İslam Əməkdaşlıq Təşkilatında və digər beynəlxalq təşkilatlarda üzvlüyünü davam etdirib:

"Azərbaycan NATO-nun antiterror təşəbbüslərini alyansın "Sülh Naminə Tərəfdaşlıq" ölkələrindən biri kimi dəstəkləyir. Azərbaycan 120 sülhməramlı hərbçisi ilə NATO-nun Əfqanıstanda keçirdiyi "Qətiyyətli Dəstək" missiyasında iştirak edib və Əfqanıstan milli ordusunun Məqsədli Fonduna töhfə verib".

Göründüyü kimi, ABŞ Dövlət Departamenti Azərbaycanın həm öz ölkəsi daxilində, həm də ümumən Cənubi Qafqazda terrorla mübarizəyə verdiyi töhfədən bəhs edib. Bu obyektiv qiymət və Azərbaycanın əlaqədar qurumlarının uğurları nəyin hesabınadır?

Təhlükəsizlik qurumlarının sabiq əməkdaşı Elşən Həsənov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, ABŞ-ın bu qiyməti reallıqdan doğan mənzərəni əks etdirir:"Azərbaycan doğrudan da bu sahədə aktivlik nümayiş etdirir. Bizim ölkənin yerləşdiyi məkan terrorizmin fəaliyyəti və əlaqələndirilməsi üçün əlverişli sayıla bilər. Bu səbəbdən də həmlələr çox olur, ancaq Azərbaycan hüquq-mühafizə və təhlükəsizlik qurumlarının ayıq-sayıqlığı onların fəaliyyəti üçün münbit zəmin yaratmır.

ABŞ Dövlət Departamenti bundan əvvəlki hesabatlarında da Azərbaycanın terrorla mübarizə sahəsində ABŞ-la möhkəm tərəfdaşlıq əlaqələrini qoruyub saxladığını vurğulayıb. Burada dəfələrlə Qafqaz regionu vasitəsilə insan, pul və digər materialları qanunsuz keçirmək istəyən terror təşkilatlarının qarşısı alınıb. Ölkəmizdə terrorla mübarizə məsələlərinə ciddi diqqət var. Buraya terrorla əlaqəsi olan şəxslərin təqibi, qanunsuz silah və sursatın müsadirəsi, eləcə də ölkə xaricindəki münaqişələrdə iştirak edib oradan geri qayıdan yaraqlıların həbs olunaraq mühakimə edilməsi daxildir.

Azərbaycanda terrorla mübarizə sahəsindəki qanunvericiliyə düzəlişlər edilib və muzdlu kimi xarici ölkələrdə döyüşlərdə iştirak edən şəxslərin məsuliyyəti qanunda əksini tapıb. Azərbaycan terrorizmlə bağlı informasiya mübadiləsi məsələlərinə də böyük önəm verir. Bundan əvvəlki hesabatlarda ABŞ İraq və Suriyaya xaricdən gələn terrorçuların keçməsi, həmçinin buradakı ekstremist qrupların qanunsuz maliyyələşdirilməsi ilə bağlı məlumat mübadiləsinin həyata keçirilməsində Azərbaycanın səylərini təqdir edirdi.

Azərbaycan terrorçuluğun maliyyələşdirilməsinə qarşı ardıcıl addımlar atmaqda davam edir. Terrorla mübarizə sahəsində Azərbaycan, ATƏT və NATO da daxil olmaqla, regional və beynəlxalq səviyyədə əməkdaşlıq səylərini davam etdirərək, terrorizm, narkotik maddələrin qanunsuz dövriyyəsi və mütəşəkkil cinayətkarlığa qarşı mübarizədə fəal iştirak edir. Azərbaycan, həmçinin, ABŞ-ın da iştirak etdiyi terrorizmlə mübarizə koalisiyasında fəal təmsil olunur. Ölkəmizin sülhməramlılardan ibarət kontingenti İraq, Əfqanıstan kimi qaynar nöqtələrdə xidmət aparıb".

**Bütün bunlardan belə nəticəyə gəlinir ki, Azərbaycan həqiqətən terrorizmlə mübarizədə dünya üçün örnək sayılacaq mövqe sergiləyir. Amma bir faktı da qeyd edək ki, bizim özümüz də erməni terrorundan əziyyət çəkən ölkəyik. Yaxşı olardı ki, dünyanın nüfuzlu ölkələri və təşkilatları eyni həmrəyliyi bizə münasibətdə də nümayiş etdirsinlər.**

***Məhəmmədəli QƏRİBLİ***

---

**ABŞ Azərbaycanı hərbi təlimlər keçirərkən onların miqyası və təyinatı haqqında daha ətraflı məlumat verməklə daha şəffaf olmağa çağırır. Bu barədə Dövlət Departamentinin silahlara nəzarət sahəsində sazişlərə və öhdəliklərə riayət olunması haqqında Konqresə təqdim etdiyi məruzədə deyilir.**

# Azərbaycanın hərbi təlimləri barədə öncədən beynəlxalq dairələrə məruzə edilməsi - Nazirlik saytda məlumat yayır, ABŞ Departamentindən mübahisəli irad...

## ***Ramil Məmmədli:*** *"Azərbaycan ordusunun bununla bağlı heç bir qurum və ya ölkə qarşısında öhdəliyi yoxdur"*



Dövlət Departamentinin məruzəsində bildirilir ki, Vaşinqton ötən ilin payızında "genişmiqyaslı təlimlərdə şəffaflıq olmaması" ilə bağlı narahatlığını Bakı ilə bölüşüb:

"Vyana sənədinin 9/12 saylı qərarına uyğun olaraq, iştirakçı dövlətlər hər il ən azı bir böyük hərbi təlim haqqında məlumat verməlidirlər. Azərbaycan təlimlər keçirir, amma ən azı ildə bir böyük hərbi təlim haqqında məlumat vermir", deyə məruzədə bildirilir.

Öz növbəsində, Azərbaycan hökuməti ATƏT-in Təhlükəsizlik sahəsində Əməkdaşlıq Forumunda bildirib ki, Müdafiə Nazirliyinin veb-saytındakı elanlar Vyana sənədinin çərçivələrini aşan heyət və silahlar haqqında bütün məlumatları ehtiva edir və heç nə gizlədilməyib.

Azərbaycan Müdafiə Nazirliyinin saytında və Azərbaycan KİV-ində yer alan məlumata görə, ölkədə 2019-cu il martın 11-dən 15-nə qədər genişmiqyaslı təlimlər keçirilib. Bu təlimlərdə 10 000 nəfərə yaxın heyət, 500-ə qədər tank, zirehli texnika və digər nəqliyyat vasitələri, 300-ə qədər raket-artilleriya sistemi və 20 hərbi təyyarə iştirak edib.

Bundan başqa, 2019-cu il sentyabrın 16-dan 20-nə qədər Azərbaycanda 10 000 nəfərə yaxın heyətin, 100-dən çox tank və zirehli maşının, 120 raket-artilleriya sisteminin və 20 hərbi təyyarə və dronun iştirakı ilə növbəti genişmiqyaslı təlimlər keçirilib.

Müdafiə Nazirliyinin saytında və yerli mətbuatda, həmçinin, 2019-cu il iyunun 7-dən 11-nə qədər Naxçıvanda Türkiyə Silahlı Qüvvələri ilə birgə 5000 hərbi qulluqçunun, 200 tank və digər zirehli texnikanın, 180-nə qədər minaatan və raket artilleriya sisteminin və 21 hərbi təyyarə və helikopterin iştirakı ilə "Sarsılmaz qardaşlıq - 2019" təlimlərinin keçirildiyi barədə məlumat verilib.

Belə olan halda ABŞ Departamentinin bu iradını nə dərəcədə əsaslı saymaq olar?

Hərbi ekspert Ramil Məmmədli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, ölkələrin silahlı qüvvələri irimiqyaslı hərbi təlimlər keçən zaman, beynəlxalq etik normalara uyğun olaraq, həmin ölkədə fəaliyyət göstərən diplomatik missiyaları və BMT-nin ölkədə fəaliyyət göstərən nümayəndəliyini məlumatlandırır:"Azərbaycan ordusu da hər dəfə irimiqyaslı hərbi təlimlər keçən zaman adıçəkilən istiqamətlər üzrə məlumatları təqdim edir. Bu məlumatlandırma ilə bağlı bizim üzərimizə vacib öhdəlik qoyulmur. Bu, əsasən etik normalarla bağlıdır. Nəinki Azərbaycan, istənilən ölkə öz ərazisində hərbi təlimlər keçən zaman bu barədə məlumat verməyə də bilər. Bu məntiqlə yanaşılsa, onda gərək biz hətta xırda miqyasda olan təlimlərimiz barədə də hamıya məlumat verək. Belə yanaşmanı doğru saymıram. Araşdırsanız görərsiniz ki, bizim ordunun keçirdiyi bütün irimiqyaslı təlimlərlə bağlı ölkə mediasında da kifayət qədər məlumatlar dərc edilib. Təbiidir ki, onların həmısının istinad mənbəyi Müdafiə Nazirliyidir. Həmin qurum bunu gizli həyata keçirsəydi, heç bu barədə məlumat verməyi zəruri saymazdı. Görürsünüz ki, bu məsələni hər dəfə ermənilər xüsusi olaraq şişirdir. Hazırda da bu məlumat onların KİV-i tərəfindən aktiv paylaşılır. Bu, soyuq müharibənin tərkib hissəsidir. ABŞ-ın tələbləri hərbi məxfiliyin qorunmasına ziddir. Çünki Azərbaycan ordusunun haqqı çatır ki, hərbi təlimlərə cəlb etdiyi şəxsi heyət və texnika ilə bağlı müfəssəl məlumat verməsin. Bu bizim hüquqmuza aid olan məsələdir. Bir faktı da nəzərə almaq lazımdır ki, burada söhbət müharibə şəraitində olan, torpaqlarının 20 faizi işğala məruz qalmış dövlətin ordusundan gedir. Yaxşı olardı, ABŞ Departamenti belə sərt tələbləri Ermənistan qarşısında qoysun ki, onlar işğal edilmiş ərazilərimizdən geri çəkilsinlər. Bir daha deyirəm ki, Azərbaycan ordusunun bununla bağlı heç bir qurum və ya ölkə qarşısında öhdəliyi yoxdur".

Sonda bu nəticəyə gəlinir ki, Azərbaycan hərbi təlimlərlə bağlı öz üzərinə düşən bütün etik öhdəliklə riayət edir. Doğrudan da, Departamentin bu məsələni xüsusi diqqətdə saxlaması təəccüblüdür. Yaxşı olardı ki, belə konkret iradlar özgə ərazilərini işğal edən Ermənistan ordusuna bildirilsin. Azərbaycanın öz ərazisində istənilən növ hərbi təlim keçməyə mənəvi və hüquqi haqqı çatır.

***Məhəmmədəli QƏRİBLİ***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Ordumuz zəfər yürüşünə tam hazırdır...

**Son illərdə ordusunu kifayət qədər gücləndirən Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində güc faktorundan istifadənin mümkünlüyü ilə bağlı indi Ermənistana daha çox xəbərdarlıq ünvanlamaqdadır. Elə işğalçı ölkədə də yaxşı bilirlər ki, güclü Azərbaycan ordusu düşmənini qısa müddətdə darmadağın etməyə tam hazırdır.**

Faktdır ki, Azərbaycan iqtisadi cəhətdən gücləndikcə hərbi qüdrətimiz də bir o qədər artır, ordumuzun döyüş hazırlığı yüksəlir. Atılan addımlar nəticəsində yüksək texnologiyaların tətbiqi ilə hazırlanmış ən müasir, yüksək dəqiqliyə, geniş ərazidə məhvetmə qabiliyyətinə malik silah-sursat və döyüş texnikası ordumuzun silahlanmasına qəbul edilib. Şəxsi heyətin döyüş hazırlığı da kifayət qədər yüksək səviyyədədir. Silahlı Qüvvələrimizin şəxsi heyətinin əksər hissəsi yeni, müasir komplekslərdə, hərbi şəhərciklərə yerləşdirilib. Qısa müddətdə, xüsusən cəbhəboyu zonada onlarla hərbi şəhərcik tikilərək istifadəyə verilib. Elə son 5 gün ərzində daha bir neçə belə şəhərcik istifadəyə verilib. Amma ümumilikdə götürdükdə, Silahlı Qüvvələrin modernləşdirilməsi, demək olar ki, bütün vacib sahələri əhatə edir. Məsələn, müasir döyüş əməliyyatlarında aviasiyanın və artilleriyanın rolunu nəzərə alaraq, görülən işlər çərçivəsində Hərbi Hava Qüvvələrinin döyüş vasitələrinin, idarəetmə sisteminin təkmilləşdirilərək yüksək texniki standartlar səviyyəsinə çatdırılması istiqamətində artıq bir çox işlər yerinə yetirilib və proses daim davam etdirilir. Quru qoşunları və digər qoşun növləri ilə bağlı vəziyyət də ölkəmizdə ən yüksək səviyyədədir. Bu durumda Azərbaycan Silahlı Qüvvələrinin düşmənə tuşlanan müasir, uzaqmənzilli, yüksək dəqiqliyə və dağıdıcı qüvvəyə malik minlərlə raketinin bütün Ermənistan ərazisindəki hərbi və müdafiə əhəmiyyətli obyektləri, eləcə də strateji kommunikasiya sistemlərini məhv etməyə qadir olduğunu artıq qarşı tərəf də yaxşı bilir. Ümumiyyətlə, son illər ərzində əldə edilən silah-sursat, hərbi texnika Ermənistanla Azərbaycan arasında hərbi sahədəki pariteti bizim xeyrimizə əhəmiyyətli dərəcədə dəyişib. Eyni zamanda, Azərbaycanda hərbi-sənaye kompleksinə aid onlarla müəssisə fəaliyyətə başlayıb.

O da həqiqətdir ki, ordunun gücü yalnız çoxsaylı silahlarla, hərbi texniki vasitələrlə ölçülmür. Ordumuzla bağlı daha bir üstünlük odur ki, şəxsi heyətin mənəvi-psixoloji səviyyəsi də çox yüksəkdir, ordumuzda xidmət edən hər bir əsgər və zabit yüksək vətənpərvərlik ruhuna malikdir. Indi tam əminliklə demək olar ki, ən müasir silah-sursat və döyüş vasitələri ilə təchiz edilmiş, yüksək vətənpərvərlik ruhuna malik, mənəvi-psixoloji cəhətdən hazırlıqlı Azərbaycan ordusu Qarabağ uğrunda zəfər yürüşünə tam hazırdır. Bunu Azərbaycandan kənarda da daim xüsusi vurğulayırlar. Məsələn, milli münaqişələr üzrə rusiyalı ekspert Yevgeniy Mixaylov bildirir ki, Azərbaycan ordusunun döyüş qabiliyyətinə görə Ermənistan hərbi birləşmələrindən qat-qat üstün olduğu göz qabağındadır. Onun sözlərinə görə, yalnız humanitar yardımlara bel bağlayan Ermənistandan fərqli olaraq, Azərbaycan hər cür silahlar almaq iqtidarındadır: "İstər təlim-tədris, istərsə də müasir silahlar idxalı sahəsində Azərbaycan Rusiya ilə səmərəli əməkdaşlıq edir. Bununla bağlı rəsmi İrəvanın bütün iradları və qorxuları əsassızdır. Rusiya olmasa belə, başqa ölkələr də Azərbaycana silah satar, çünki ödəniş yerindəcə həll olunur. Ermənistan tərəfi isə yalnız humanitar yardımlara bel bağlaya bilər, yeganə səmərəli müdafiə amili isə Gümrüdəki Rusiyanın hərbi bazasıdır. Özü də Rusiya ordusu separatçı regionu yox, məhz Ermənistanın özünü qoruyacaq ki, bu da Paşinyan rejimini bərk narahat edir".O, həmçinin, Ermənistanın təxribatçı addımları ilə Azərbaycanı cavab tədbirlərinə təhrik edə biləcəyini istisna etməyib:"Paşinyan rejiminin danışıqlar aparmaq iqtidarında olmaması göz qabağındadır. İşğal olunmuş ərazilərin qaytarılmasına dair daha əvvəl əldə olunmuş razılaşmalar qəsdən pozulur. Hətta Ermənistanın təhlükəsizliyinə zamin olan Rusiya belə artıq İrəvanın atdığı addımlardan əsəbiləşdiyini gizlətməyə lüzum görmür". Pakistanın Milli Təhlükəsizlik üzrə sabiq məsləhətçisi, ehtiyatda olan general-leytenant Nasir Xan Cancua da eyni mövqeni bölüşür. O, Azərbaycan ordusunun regionun ən güclü ordularından birinə çevrilərək, işğal olunmuş əraziləri istənilən vaxt azad etmək iqtidarında olduğunu vurğulayır. Azərbaycan ordusunun 2016-cı ilin aprel qələbəsi və 2018-ci ildə keçirilmiş uğurlu Naxçıvan əməliyyatı da bunun təsdiqidir.

Belə vəziyyətdə Rusiyanın "Arqumentı nedeli" nəşri də yazır ki, Azərbaycan Qarabağ məsələsini güc yolu ilə həll etməyə hazırdır:"Qafqazda böyük müharibə başlaya bilər. Azərbaycan və Ermənistan arasında münaqişə, demək olar ki, 30 ildir davam edir. Bu münaqişə yenidən alışmağa və tammiqyaslı müharibəyə çevrilməyə hazırdır. Hələlik regionda şərti barışığa riayət olunur, informasiya sakitliyi müşahidə olunur. Dağlıq Qarabağ məsələsi xəbərlərdə əsas gündəm olmur. Buna görə də çoxları artıq hər şeyin çoxdan bitdiyini düşünür, əslində isə Dağlıq Qarabağda müharibə davam edir".

"Arqumentı nedeli" münaqişə ətrafında baş verənlər və gözləntilərlə bağlı "Dağlıq Qarabağda müharibənin hüquqi tərəfi" elmi işinin müəllifi Sədat Quliyevin fikirlərini öyrənib. Münaqişənin tarixi, Ermənistanın Azərbaycan torpaqlarının işğalına necə nail olduğu haqda danışan S.Quliyev hesab edir ki, hazırda mövcud vəziyyət pisləşməyə doğru gedir, xüsusilə 2018-ci ildən sonra:

"Ermənistan Dağlıq Qarabağın müstəqilliyini tanımağı tələb edir, Azərbaycan ərazi bütövlüyünün təmin edilməsini, hərçənd, Qarabağa muxtariyyət də verməyə hazır idi. İndi vəziyyət əhəmiyyətli dərəcədə dəyişdi. Bakının mövqeyi dəyişməyib, dəyişən İrəvanın mövqeyidir. 2018-ci ilə qədər Ermənistan prezidentləri istəyirdilər ki, Azərbaycan yalnız Dağlıq Qarabağın müstəqilliyini tanısın, qalan yeddi rayon isə Azərbaycana qaytarılmalıdır, çünki bu ərazilər Azərbaycanındır. İndi Ermənistan ümumiyyətlə ərazilərin qaytarılmasını müzakirə etmək istəmir. Azərbaycanın mövqeyi dəyişməyib. Ermənistan 2018-ci ilə qədər anlayırdı ki, işğal edilmiş rayonları qaytarmalıdırlar. 2018-ci ildə Ermənistanda baş nazir əsas səlahiyyətli şəxsə çevriləndən, idarəçilik sistemi dəyişəndən sonra İrəvanın Qarabağı da, ətraf rayonları da qatarmaq istəmədiyi fikri önə sürüldü. İndi ermənilər bu ərazilərdə fəal şəkildə məskunlaşırlar. Əgər müharibəyə qədər orada 145 min erməni yaşayırdısa, indi Ermənistan tərəfindən işğal edilmiş Azərbaycanın bütün ərazisində 150 mindən çox erməni yaşayır". S.Quliyev qeyd edir ki, Suriyadan, Liviyadan 150 min erməni Qarabağa köçürülüb:"Deyəsən, hər şey böyük müharibəyə doğru gedir. Hələ ki, böyük güclər münaqişənin eskalasiyasına imkan vermir, amma yara qanayır, 2016-cı ildə olduğu kimi böyük eskalasiya gec-tez olacaq". Elə rusiyalı şərhçi Mixail Simonov da bu amilə diqqət çəkərək, Dağlıq Qarabağ münaqişəsinin həlli perspektivinin savaşla ola biləcəyini istisna etmir:

"Qarabağ cəbhəsində heç vaxt atəşkəs tam baş tutmayıb, hətta koronavirus pandemiyası belə bunu dayandıra bilmədi. Müntəzəm olaraq atəşkəsin pozulması və tərəflərin bir-birinə qarşı ittihamları haqqında xəbərləri eşidirik. Pandemiya Azərbaycan və Ermənistanın mayın ikinci yarısında hərbi təlimlərə başlamasına da mane ola bilmədi. Regionda vəziyyətin ciddiliyi hərbi ekspertlər tərəfindən dəfələrlə dilə gətirilib. Bu günlərdə nüfuzlu "Forbes" nəşri Azərbaycan və Ermənistanın casusluq və zərbələr üçün pilotsuz təyyarələrlə silahlandığı haqda yazırdı. Nəşr qeyd edir ki, "Qafqazda pilotsuz təyyarələrin müharibəsi ola bilər". Əfsus ki, münaqişə bölgəni təhlükə altına atır". Simonov hesab edir ki, Moskvadakı parad Azərbaycan və Ermənistanın sülhə nail ola biləcəyini göstərdi:"ATƏT-in Minsk Qrupunun fəaliyyəti sülh razılaşması haqda kədərli mənzərə yaratsa da, Rusiyanın birləşdirici rolu münaqişənin ədalətli həllinə hələ də ümidlərin olduğunu deməyə əsas verir. Amma bu olmasa, Azərbaycan güc yolu ilə ərazi bütövlüyü məsələsini həll etməyə tam hazırdır və bunu Ermənistanda da yaxşı bilirlər".

Bu durumda Ermənistanda ordu ilə bağlı problemlərin miqyasının böyüməsi də aydın müşahidə olunur. Məsələn, məlumdur ki, Ermənistan ordusu ildən-ilə daha ciddi şəkildə çağırışçı problemi ilə üzləşir və hərbi hissələrin komplektləşdirilməsi mümkünsüz xarakter alır. Əsas səbəblərdən biri isə Ermənistanda demoqrafik problemin getdikcə daha da dərinləşməsidir. Hazırda Ermənistanda şəxsi heyətlə tam şəkildə komplektləşdirilə bilən hansısa hərbi hissə yoxdur. Əksinə, ordunun şəxsi heyətlə təminatı durmadan pisləşir, real hərbçilərin sayı azalır. Bu durumda fərari əsgər sayına görə də Ermənistan ordusu ön sıralardadır. Ekspertlərin fikrincə, acınacaqlı vəziyyətdə qulluq etmək istəməyən əsgərlər hərbi hissələri tərk edir.

Məcburi hərbi xidmətdən yayınmaya görə müxtəlif illərdə minlərlə əsgərə cinayət işinin açılması da bunun təsdiqidir. Amma bu da istənilən nəticəni vermir. Artan hərbi itkilər də burada az rol oynamır. Ümumilikdə son illərdə Ermənistan ordusu cəbhə xəttində, döyüş şəraitində hər il orta hesabla 60-80 arası hərbi qulluqçusunu itirir. Bundan əlavə, hər il 100-dən çox əsgər digər hadisələrdən, məsələn, avtoqəza, silahla ehtiyatsız davranış, xəstəliklər, intihar və digər hallardan dünyasını dəyişir. Silah və digər təminat sarıdan da ordu acınacaqlı durumdadır. Belə vəziyyətdə ordumuz qısa müddətdə düşməni tam darmadağın etməyə hazırdır.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Dövlət başçısının tibbi maskadan istifadə zərurəti ilə bağlı çağırışlarının aktuallığı tam təsdiqlənir...

**Dünya miqyasında koronavirus pandemiyası hələ də sürətlə yayılmaqda davam edir. Nəticədə hər gün on minlərlə insan bu virusa yoluxur, minlərlə insan isə onun qurbanı olur. Hadisələrin belə dramatik şəkildə inkişaf etməsinin başlıca səbəbi isə təhlükəsizlik tədbirlərinə, məsələn, tibbi maskadan istifadəyə əksər insanların laqeyd münasibətidir. Bu isə virusun yayılma təhdidini daha da yüksəldir.**

Bu durumda tibbi maskadan istifadə artıq bir sıra ölkələrdə zəruri xarakter alır. Türkiyənin səhiyyə naziri Fəxrəddin Qoca isə bunu zəruri saymaqla yanaşı qeyd edir ki, yeni növ koronavirus infeksiyasının yayılma risqini azaltmaq üçün qoruyucu maskadan istifadə etmək hər kəsin vətəndaşlıq borcudur. Bu tələbə əməl etmək mövcud vəziyyətdə mədəniyyət göstəricisidir. Nazir fikrini mülahizələrlə də əsaslandırıb ki, hazırda ölkə üzrə gündəlik yoluxma sayında artım müşahidə olunsa da, bu ikinci dalğa deyil:"İkinci dalğanı önləmək üçün sosial məsafə gözlənilməli, qoruyucu maskadan istifadə edilməlidir".

Maskadan lazımı həddə istifadə edilməməsi səbəbindən ABŞ xəstəxanalarında koronavirus infeksiyasına yoluxan xəstələrin sayı sürətlə artmaqdadır. Son günlərdə ABŞ-da COVID-19-a gündəlik olaraq 26 mindən çox yeni yoluxma faktı qeydə alınıb. "Əl-Cəzirə" telekanalı bildirir ki, ABŞ-ın cənub və qərb ştatlarında son günlərdə yeni növ koronavirus infeksiyasına yoluxma hallarının artımı ilə bağlı həyəcan yaşanmaqdadır:"Son zamanlar COVID-19 virusuna nəzarətin gücləndirilməsinə və virusa qarşı mübarizədə əldə olunan irəliləyişlərə baxmayaraq, bir çox amerikalıların tibbi maska taxmaq və sosial məsafə saxlamağa laqeyd yanaşmaları səbəbindən xəstəliyin miqyası genişlənir. COVID-19 infeksiyası ilə bağlı həyata keçirilən məhdudiyyətlərin son bir ay yarım ərzində yumşaldılması virusun yenidən sürətlə yayılmasına səbəb olub, beləliklə də təkcə Florida ştatında infeksiyaya yoluxmuş xəstələrin sayı 100 mini ötüb keçib. ABŞ-ın digər ştatlarında da koronavirus infeksiyasına yoluxmada kəskin artım müşahidə edilib. Hyuston metodist xəstəxanasının baş direktoru Mark Bum növbəti üç həftə ərzində xəstəxanaların tam dolacağını proqnozlaşdırıb və vətəndaşlara müraciət edərək hamını tibbi maskalardan istifadə etməyə və sosial məsafə saxlamağa çağırıb. Texas, Alabama, Florida və Cənubi Karolina ştatları daxil olmaqla, bir sıra ştatların qubernatorları da bütün vətəndaşların tibbi maska taxmaq qaydasına riayət etməsinin vacibliyini vurğulayıblar".

Bolqarıstanda isə yenidən maska rejimi tətbiq olunub. Belə ki, Bolqarıstanın hakimiyyət orqanları qapalı ictimai yerlərdə yenidən qoruyucu maskanın məcburən taxılması rejimini tətbiq etmək barədə göstəriş verib. Səhiyyə naziri Kiril Ananiyev bildirib ki, daha əvvəl ləğv olunmuş maska rejiminin yenidən tətbiq edilməsi qərarı məhdudiyyət tədbirlərinin ümumi şəkildə gücləndirilməsi fonunda verilib. Buna səbəb ölkədə son günlər COVID-19 infeksiyasının yayılması ilə bağlı vəziyyətin pisləşməsi olub. Artıq ictimai nəqliyyatda, xəstəxana və apteklərdə də maska taxılmasına nəzarət gücləndirilib. Bundan başqa, insanlar mağazalara və ticarət mərkəzlərinə getdikdə 1,5 metrlik distansiyaya mütləq riayət etməlidir.

Dünya dövlətləri timsalında tibbi maska ilə bağlı bu qəbildən olan misalların sayını xeyli artırmaq mümkündür. Bu hal həm də prezident İlham Əliyevin bir çox son çıxışlarında tibbi maska məsələsinə xüsusi toxunmasının səbəblərini açıqlayır. Bu mövzuya dövlət başçısı Gəncə şəhərində modul tipli xəstəxananın açılışından sonra bir qrup tibb işçisi ilə görüşündə də yenidən toxundu:"Qapalı yerlərdə maska taxmayana qarşı, əlbəttə ki, cərimə tətbiq edilməlidir. Amma eyni zamanda, bunu görən başqa vətəndaş onu tənbeh etməlidir, onu başa salmalıdır. Gözləməməlidir ki, polis gələcək, onu cərimələyəcək. Polis də insanları qorumaq üçün gecə-gündüz küçələrdədir, gecə-gündüz fasiləsiz işləyir. Ona görə qapalı şəraitdə hər kəs maska taxmalıdır. Mən maska ilə gəzirəm. Göstərmişəm, bir daha göstərirəm. Bütün qapalı yerlərdə maska taxıram. Yaxşı, indi prezident bunu edirsə, niyə başqası edə bilməz? Nə çətin şeydi bu? Heç bir əziyyət vermir, heç bir problem yaratmır. Sadəcə olaraq, məsuliyyətsizlik və deyə bilərəm ki, eqoizm və biganəlik. Gənc nəslin nümayəndələri üçün bu xəstəlik o qədər də təhlükəli deyil və hesab edir ki, xəstələnərəm, sağalaram. Axı, yaxşı sən sağalarsan, amma sən yaşlı insanı da yoluxdurarsan. Sən onun həyatını təhlükə altına atırsan. Biz bu məsuliyyətsizliyə dözməliyikmi? Çünki bu, cinayətdir. Ona görə ictimai qınaq və çox ciddi dövlət nəzarəti olmalıdır...İdarələrdə idarə rəhbərləri görəndə ki, onun işçisi maska taxmır, əlbəttə, tədbir görməlidir, dərhal reaksiya verməlidir, müvafiq qurumlara məlumat verməlidir".



Bu arada onu da qeyd edək ki, Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) maska ilə bağlı tövsiyələrinə dəyişiklik edib. Yeni tövsiyələrdə deyilir ki, maskanı yalnız koronavirus simptomu və ya gizli daşıyıcısı olanların yox, hər kəsin taxması tövsiyə edilir. Maska taxmayan COVİD-19 daşıyıcısının maska taxan sağlam insanı yoluxdurma ehtimalı 70 faizdir. Maska taxan COVİD-19 daşıyıcısının maska taxmayan sağlam insanı yoluxdurma ehtimalı 5 faizdir.

Hər iki şəxs maska taxarsa, virusun yoluxma ehtimalı 1.5 faizə düşür. Bu durumda, yuxarıda qeyd edildiyi kimi, dünyanın bir çox ölkələrində maska taxmaq məcburi elan olunub və bu qaydanı pozanlar cərimə və ya həbs olunur. Azərbaycanda da maskadan istifadə etməməyə görə cərimələr qüvvədədir. Belə ki, müəyyən edilmiş yerlərdə tənəffüs yollarını qoruyan fərdi vasitələrdən istifadə etməməyə görə fiziki şəxslər 50 manat, vəzifəli şəxslər 100 manat, hüquqi şəxslər 200 manat məbləğində cərimə edilir.

***Ramil QULİYEV***

# Pandemiya ilə mübarizədə dövlət nəzarətinin və ictimai qınağın birlikdə sərtləşdirilməsinin mümkün səmərəsi...

**"...İndi görün inkişaf etmiş ölkələrdə nələr baş verir. Vəziyyət tamamilə böhran həddinə çatıb. O ölkələrin ki, dövlətçilik ənənələri yüzilliklərlə ölçülür və o ölkələrin səhiyyə sistemi dünyada nümunə kimi təqdim olunur, onlar da bacarmırlar, çünki bu, mümkün deyil.**




***Rauf Zeyni:** "Dövlət nəzarəti ilə ictimai qınaq birlikdə tətbiq edilərsə, bunun vətəndaş məsuliyyətsizliyinin aradan qaldırılmasında rolu böyük olar"*

Ona görə mənim bu sözlərim hesab edirəm, hər kəs üçün əsas olmalıdır - həm vətəndaşlar üçün, - onlar daha məsuliyyətli olmalıdırlar, - həm də vəzifə tutanlar, dövlət məmurları üçün. Dövlət nəzarəti, ictimai nəzarət, vətəndaşların nizam-intizamı və məsuliyyəti artmalıdır. Əgər biz görsək ki, nizam-intizam bundan sonra da pozulur, onda fikirləşərik, daha hansı təsirli addımlar atılsın ki, bu qaydaları pozanlara qarşı daha ciddi tədbirlər görülsün".

Bu fikirləri Prezident İlham Əliyev iyunun 24-də 1 saylı Gəncə Şəhər Xəstəxanasının modul tipli infeksion xəstəliklər korpusunun açılışındakı çıxışı zamanı deyib.

Ekspertlər təəssüflə qeyd edirlər ki, bir çox vətəndaş pandemiya qaydalarına əməl etməməklə virusun daha da geniş şəkildə yayılmasına səbəb olub. Bu baxımdan, baş verənlərin vətəndaş məsuliyyətsizliyi ilə bağlı olduğunu bildirən ekspertlərin sözlərinə görə, Prezidentin məsuliyyətsizliyə yolvermə hallarına qarşı dövlət və ictimai nəzarətin daha da sərtləşdirilə biləcəyini deməsi ictimaiyyətin, ictimai qurumların, qeyri-hökumət təşkilatlarının da çiyninə böyük məsuliyyət qoyur. Ekspertlər hesab edirlər ki, bu istiqamətdə ictimai qurumlar, ictimaiyyət dövlət qurumları ilə yanaşı, bu prosesə daha yaxından qoşulmalı və nəzarəti gücləndirməlidir.

Milli Qeyri-Hökumət Təşkilatları Forumunun prezidenti Rauf Zeyni "Bakı-Xəbər"ə bildirdi ki, Prezidentin çıxışında əks olunan bu vacib məsələ ictimai qurumların, ictimaiyyətin, vətəndaş institutlarının qarşısına böyük vəzifələr qoyur. "Bu gün ölkəmizdə və bütün dünyada çox ciddi narahatlıq yaradan koronavirus pandemiyası ilə mübarizə istiqamətində dəfələrlə ictimaiyyətə müraciətlər, çağırışlar etmişik. Bununla bağlı bir çox videokonfrans, videotədbirlər keçirmişik. Əhali arasında maarifləndirmə tədbirləri görülür, ictimai nəzarətin monitorinqi keçirilib. Biz bu tədbirləri davam etdirir, ictimai nəzarəti gücləndiririk. Milli Qeyri-Hökumət Təşkilatları Forumunun koronavirusla mübarizə qərargahı və ictimai qərargahı var. İctimai liderlər platforması və digər vətəndaş cəmiyyəti institutları dövlətin pandemiya ilə mübarizəsinə ciddi dəstək verirlər. Hesab edirəm ki, vətəndaş məsuliyyətsizliyinin aradan qaldırılması üçün dövlət nəzarəti və ictimai nəzarət daha da gücləndirilməlidir. Ölkə başçısı İlham Əliyevin Gəncə səfəri zamanı bu məsələ ilə bağlı səsləndirdiyi fikirləri, tövsiyələri tam olaraq dəstəkləyirəm, karantin rejiminin qaydalarına əməl etməyən vətəndaşlara qarşı ictimai və dövlət nəzarəti ilə yanaşı, inzibati tədbirlər gücləndirilməlidir. Fikrimcə, vətəndaşların bu yöndə məsuliyyətsizliyə yol verməməsi üçün ictimai nəzarət daha da gücləndirilməli, maarifləndirmə tədbirləri genişləndirilməlidir. Dövlət olaraq, xalq olaraq, pandemiyaya qarşı mübarizə apardığımız və vətəndaşlarımızı məsuliyyətli olmağa çağırdığımız bir vaxtda, təəssüflər olsun ki, bu virusun mövcud olduğuna hələ də inanmayan vətəndaşlarımız var. Heç şübhəsiz ki, dövlət nəzarəti ilə ictimai qınaq birlikdə tətbiq edilərsə, bunun vətəndaş məsuliyyətsizliyinin aradan qaldırılmasında rolu böyük olar. İctimai qınaq vacibdir".

*"İlham Əliyevin Gəncə səfəri zamanı bu məsələ ilə bağlı səsləndirdiyi fikirləri, tövsiyələri tam olaraq dəstəkləyirəm"*

Bəli, çox təəssüflər olsun ki, Prezidentin, dövlət qurumlarının, mütəxəssislərin, vətəndaş cəmiyyəti institutlarının təmsilçilərinin çağırışlarına baxmayaraq, hələ də karantin rejimini pozan, məsuliyyətsizliyə yol verən vətəndaşlara rast gəlirik.

Sözsüz ki, vətəndaş məsuliyyətsizliyinin aradan qaldırılması üçün dövlət və ictimai nəzarətin gücləndirilməsi ilə yanaşı, vətəndaşlar da baş verənlərdən nəticə çıxarmalı, dövlətin, ictimai qurumların çağırışlarını, nəzarətini gözləmədən öz üzərlərinə düşən vəzifəni yerinə yetirməli, nizam-intizamlı olmalı, qaydalara əməl etməlidirlər. İctimai qınaq institutunun hazırkı vəziyyətdə daha sürətlə hərəkətə gətirilməsinə ciddi ehtiyac olduğu da duyulmaqdadır. Məsuliyyətsiz vətəndaş hər addımda ictimai qınaqla üzləşərsə, onda nizam-intizamlı olmağa çalışar. Vətəndaşlar həm də bununla qanunlarımıza, eləcə də öz vətəndaş adına hörmət etmiş olarlar. Bu da Azərbaycanın bu virusdan tezliklə xilas olmasına gətirib çıxarar.

*İradə SARIYEVA*

---

# Pandemiyadan ən az zərər çəkmiş Azərbaycan barədə yeni proqnoz - gələn il 3 faiz iqtisadi artım...

**Tez-tez mediada koronavirus pandemiyasının qlobal iqtisadiyyata ağır zərbə vurması, onun inkişafını zəifləməklə, bir neçə il geriyə salması barədə xəbərlərlə rastlaşırıq. Pandemiyanın dünya iqtisadiyyatına, eləcə də ölkəmizə təsiri barədə məlumatlar yer alır.**



***Natiq Cəfərli:** "Gələn il iqtisadiyyatda qeydə alınacaq artım 2020-ci ildə itirilənlərin geri qayıtması hesabına olacaq"*

Araşdırmalar bir çox ölkəyə nisbətdə Azərbaycanın iqtisadi itkilərinin daha az olacağını göstərir. Xüsusən də özəl sektora dövlət dəstəyi nəticəsində Azərbaycanın itkilərinin daha az olması, gələn il isə dinamik iqtisadi artımın olması gözlənir.

"Moody's" növbəti ildə ölkəmizdə ən azı 3 faizlik iqtisadi artım proqnozlaşdırır. Burada özəl sektora dəstək yenə mühüm əhəmiyyət kəsb edir. Bu arada özəl sektor üçün hökumət yeni mühüm addımlar atır. Məsələn, pandemiya dövründə müvəqqəti vergi rejiminin qəbulu nəticəsində verginin "0" dərəcəsində tutulmasının əhatə dairəsi genişləndirilir. Artıq müvəqqəti vergi rejiminin əhatə dairəsi bir sıra yeni sahələrdə müəyyənləşdirilib. Məsələn, əmlak və torpaq vergisindən azadolmalar və mənfəət vergisindən güzəştlər müəyyənləşdirilib, sadələşdirilmiş sistem üzrə verginin azaldılması təmin edilib. Bütövlükdə, sosial sığorta haqları ilə bağlı differensasiyalar həyata keçirilib.

Beynəlxalq kredit reytinqi təşkilatı "Moody's"un gələn il Azərbaycan iqtisadiyyatında 3 faizlik artımın olacağı barədə proqnozuna dair fikir bildirən Natiq Cəfərli "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, bir çox beynəlxalq agentliyin, o cümlədən, "Moody's"un qarşıdakı illər üçün hazırladığı hesabatlar 2020-ci ilin iqtisadi göstəriciləri əsasında tərtib olunur: "Məlumdur ki, hazırda bütün dünya iqtisadiyyatında zəifləmə müşahidə olunur. Təqribən ilin sonuna kimi 3 faiz civarında iqtisadiyyatda zəifləmə müşahidə olunacaq. Gələn il isə iqtisadiyyatda artım olacaq. Bu artım 2020-ci ildə itirilənlərin geri qayıtması hesabına olacaq.

*"Bir çox beynəlxalq agentliyin, o cümlədən, "Moody's"un qarşıdakı illər üçün hazırladığı hesabatlar 2020-ci ilin iqtisadi göstəriciləri əsasında tərtib olunur"*

Onu da bildirim ki, beynəlxalq təşkilat neftin qiymətini də nəzərə alıb, onun əsasında iqtisadiyyatda artımın olacağını hesablayıb. Yəni gələn il neftin satış qiyməti 45-50 dollar arasında olarsa, o zaman iqtisadiyyatda artım ola bilər".

Sonda qeyd edək ki, əksər beynəlxalq təşkilat və maliyyə qurumu pandemiya dövrü olmağına baxmayaraq, cari və gələn il üçün Azərbaycan iqtisadiyyatında artımın olacağını öz hesabatlarında bildiriblər.

*Günel CƏLİLOVA*

**Ermənistan mediasında yenə də Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı reallığa söykənməyən iddialar yer almaqdadır. Yenə də, ənənəvi olaraq, belə illüziyalarla çıxış edirlər ki, guya Azərbaycanın danışıqlarda sərgilədiyi barışmaz mövqe üzündən nəticə əldə olunmur.**

# Paşinyan tarixi bilgilərdə çox dərində üzmək gücü olmadığını yenə göstərdi - 1920 və 1993-cü il hadisələrinin 2016-cı il hadisələrinə nə dəxli...

***Ramil Hüseynov:** "Müharibənin başlayacağı təqdirdə Azərbaycanın dövlətçiliyini itirəcəyini demək, sadəcə, ağılsızlıqdır"*



İddia olunur ki, guya 2016-cı ilin 4 aprelində Ermənistan ordusu əkshücuma keçərək Qarabağda itirilən mövqeləri geri qaytarmaq əzmində olub, amma Rusiya vasitəçilik edərək buna imkan verməyib.

Münaqişənin güc yolu ilə həlli ilə bağlı səslənən fikirlərdən narahat olan ermənilər Baş nazir Nikol Paşinyanın bu günlərdə təhlükəsizlik şurasının iclasında səsləndirdiyi fikirlərdən yapışaraq özlərinə təsəlli verirlər. Həmin iclasda Paşinyan bəyan edib ki, Azərbaycan bu dəfə münaqişənin həlli ilə bağlı güc yoluna əl atsa, hərbi münaqişə Azərbaycanın dövlətçiliyinin itirilməsi ilə nəticələnə bilər və bu qaçılmaz olacaq: "Güc tətbiqi nəticəsiz qalmayacaq və ona cavab hər zaman həm hərbi, həm də siyasi baxımdan adekvat olacaq".

Paşinyanın sözügedən fikirlərinə əsaslanaraq, illüziyaya qapılaraq yazırlar ki, 20-ci əsrdə Azərbaycan 2 dəfə dövlətçiliyini itirmək təhlükəsindən xilas olub. Bunlardan biri 1920-ci ilin aprelində olub. İkincisi isə 1993-cü ilin iyununda yaşanıb. Guya Azərbaycan bu dəfə hücuma keçsə, dövlətçiliyini itirməsi qaçılmaz olacaq.

Belə görünür ki, Paşinyan bir müddət jurnalistika ilə məşğul olsa da, tarixi dərindən bilmir. Hər zamankı kimi, populist tərzdə uğursuz müqayisələr aparır. Ən azından, ona görə ki, sözügedən tarixi dövrlərlə müqayisə aparmağın özü belə yanlışdır. Çünki Azərbaycan nə 1920-ci ildəki Azərbaycandır, nə də 1993-cü ildəki.

Məsələyə münasibət bildirən siyasi ekspert Ramil Hüseynovun sözlərinə görə, Paşinyan ağlagəlməz uğursuz müqayisələr aparır: "Məsələ ondadır ki, 1920-ci və 1993-cü illərdə mövcud olan tarixi situasiyaları indiki dövrlə müqayisə etmək ağılsızlıqdır. 1920-ci ilin aprelində Azərbaycan bolşevik Rusiyasının işğalına məruz qaldı. Bundan 2 ay əvvəl Azərbaycanın müstəqilliyi Versalda dünya dövlətləri tərəfindən tanındı. 23 aylıq Azərbaycan Demokratik Respublikasının mövcud olması bizə imkan verdi ki, sonrakı dövrdə SSRİ tərkibində mövcud olan 15 respublikadan biri olaq. ADR olmasaydı, Azərbaycan Rusiyanın federal subyektlərindən biri olardı. 1993-cü ildə isə SSRİ dağılmışdı. Bir sıra keçmiş ittifaq ölkələrində etnik münaqişə var idi. Ermənilər yaranan vəziyyətdən istifadə edərək, Rusiyanın yardımı ilə Azərbaycanın 20 faiz ərazisini işğal etdilər. Yaranan ən çətin situasiyaya rəğmən, Azərbaycan öz dövlətçiliyini itirmədi. Rusiya qoşunlarının yenidən ölkəyə qayıtmasına imkan verilmədi. Neft kontraktları imzalandı və s. Belə olan halda, hazırkı dövrdə müharibənin başlayacağı təqdirdə Azərbaycanın dövlətçiliyini itirəcəyini demək, sadəcə, ağılsızlıqdır. Çünki Azərbaycanın müqayisəolunmaz dərəcədə güclənməsi danılmaz faktdır. Bütün bunları Paşinyan görmürsə və ya görmək istəmirsə, deməli, o, reallıq hissini tamamilə itirib. Bu dəfə Azərbaycan müharibəyə başlasa, Ermənistanın itirdikləri 2016-cı ilin apreli ilə müqayisəolunmaz dərəcədə böyük olacaq. Bu zaman Azərbaycan yox, məhz Ermənistan öz dövlətçiliyini itirə bilər. Zatən, hazırkı Ermənistanın müstəqil olması mübahisəlidir".

> *"Bütün bunları Paşinyan görmürsə və ya görmək istəmirsə, deməli, o, reallıq hissini tamamilə itirib"*

Görünən odur ki, populizmə qapılan Paşinyan Azərbaycanın yenidən müharibəyə başlamasından o qədər çəkinir ki, Ermənistanı qorumaqdan ötrü ağlagəlməz fikirlərlə çıxış edir.

***Vidadi ORDAHALLI***

---

**Erməni mediası yazır ki, Ermənistan Prezidenti Armen Sarkisyan həm özünü, həm də gələcək prezidentləri Konstitusiyaya düzəlişləri imzalamaq hüququndan məhrum edən sənəd imzalayıb. Bununla da hazırkı hakim çoxluq Konstitusiyaya dəyişiklik etmək üçün məhdudiyyətsiz gücə sahib olacaq.**

# Ermənistanın indiki Prezidenti Sarkisyan özünə də, sonrakı prezidentə də ən böyük pisliyini etdi...

***Məhəmməd Əsədullazadə:** "Bu, Ermənistanda siyasi böhrana yol açacaq"*



Bundan sonra Konstitusiya düzəlişlərini imzalamaq üçün Konstitusiya məhkəməsinə və ya Prezidentə müraciət etməyə ehtiyac qalmır, bu səlahiyyət parlamentin sədrinə verilir.

Prezident A.Sarkisyanın bu addımı erməni mətbuatında sərt şəkildə tənqid olunmaqdadır. Eyni zamanda, bu addıma görə onun istefası tələb edilir.

Bu arada "Çiçəklənən Ermənistan" parlament fraksiyasının deputatı Naira Zohrabyan bildirib ki, prezidentliyinin bütün dövründə A. Sarkisyan özünü legioner kimi apardı, Ermənistan və erməni xalqı ilə bağlılığı yalnız pasportunda milliyyətinin göstərilməsi ilə məhdudlaşır: "Armen Sarkisyanın köntöy və isterik rəhbərlik tərzindən fərqli olduğunu sübut etməsi üçün ən azı bir neçə qızıl fürsəti olub. Lakin Sarkisyan hər dəfə bu şansını qaçırıb. O, bütün pis yolların ən acınacaqlısını seçdi, alçaldıcı işə qol qoydu. Prezidenti Konstitusiya dəyişikliklərini imzalamaq hüququndan məhrum edən qanun layihəsini imzalamağa məcbur etdilər, yəni özünü səlahiyyətlərindən məhrum etmək layihəsi. Prezident Sarkisyan özünün məhv edilməsi ilə bağlı protokol imzaladı. Ermənistan Prezident yoxdur, nəinki de-fakto, həm də artıq de-yure. Mən onu dərhal istefa verməyə və Britaniya astronomiya cəmiyyətinin üzvü kimi nüfuzunu qorumağa çağırıram. İctimai xadim, yaxşı təhsilli A.Sarkisyan özünü məhv etdi. Onun haqqında daha heç nə deməyəcəm. Qızıl qayda var - ölülər haqqında ya yaxşı, ya da heç bir şey".

Göründüyü kimi, A. Sarkisyanın bu addımı çox pis qarşılanmaqla yanaşı, onun reputasiyasının da üstündən xətt çəkdi. O bu addımı atmaqla özünü cəmiyyətin gözündən saldı.

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən politoloq Məhəmməd Əsədullazadə hesab edir ki, Paşinyan bununla Ermənistanın demokratik olmaycağını sübut etmiş oldu: "Ermənistan Baş naziri Nikol Paşinyan ölkədə öz sərhədsiz hakimiyyətini möhkəmlətmək üçün məhz Prezidentin səlahiyyətlərini əlindən almaq planı həyata keçirir. O düşünür ki, inqilabi yolla hakimiyyətə gəldiyi üçün, Prezidentdən də artıq yüksək vəzifədədir. Hesab edirəm ki, Konstitusiya dəyişikliklərinin imzalanması ilə bağlı Prezidentə güclü təzyiq var. Yoxsa, ağlı başında olan buna getməz. Eyni zamanda, hüququn ali olduğu ölkələrdə belə bir prosedur olmur. Göründüyü kimi, Ermənistanda Paşinyan öz diktatura sistemini qurmaq üçün Prezident postunu zəiflədir və formal xarakterli institut səviyyəsinə salır. Halbuki, Prezident dövlətin başçısıdır və Baş nazir də onunla hesablaşmalıdır.

> *"Sarkisyan vətəndaşlar arasında ona olan inam və etimadı tamamilə itirəcək"*

Ancaq Ermənistan Prezidenti Baş nazirlə hesablaşır və öz səlahiyyətlərindən əl çəkir. Bu, Ermənistanda siyasi böhrana yol açacaq. Sarkisyan vətəndaşlar arasında ona olan inam və etimadı tamamilə itirəcək. Paşinyanın həyata keçirdiyi bu Konstitusiya islahatları ilə yalnız öz hakimiyyətini möhkəmləndirməyə çalışır. Bununla da Ermənistanın demokratik olmayacağını sübut etmiş oldu".

***Vidadi ORDAHALLI***

**Koronavirus pandemiyasının yaratdığı çətinliklər səbəbindən taxtı daha çox laxlamağa başlayan Nikol Paşinyan iqtidarına qarşı "Qarabağ klanı" yenidən aktiv fəaliyyətə keçir. Əslində, Ermənistanın sabiq prezidenti Robert Köçəryanın 4 milyon dollar girov qarşılığında azad edildikdən sonra Paşinyana qarşı aktiv fəaliyyətə keçəcəyi və siyasi qüvvələri bu xüsusda bir araya gətirəcəyi gözlənilən idi.**

# Köçəryan Petrosyanın ardından bu dəfə Paşinyanı güc yolu ilə devirir...

Köçəryan hələ həbsdə olarkən bunun anonsunu vermişdi.

Ermənistanın "Qraparak" nəşri də yazır ki, Köçəryan bir tərəfdən müalicə alır, digər tərəfdən isə qızğın görüşlər keçirir. Belə ki, o əvvəlcə silahdaşları, komanda yoldaşları ilə görüşüb və Ermənistanda yaranmış vəziyyəti müzakirə edib. Qəzet daha sonra yazır:"Komanda bu yaxınlarda aydın fəaliyyətlər planını müzakirə edəcək. Ermənistanın siyasi həyatında necə iştirak edəcəklərinə qərar verməlidirlər. Köçəryan həmçinin siyasi görüşlər keçirib və bir sıra müxalif xadimlərlə, keçmiş rəsmilərlə telefon danışıqları aparıb. Xüsusən, Robert Köçəryan-Serj Sarkisyan görüşü baş tutub". Məlumata görə, sabiq prezidentlər ölkədəki mövcud vəziyyət və müxalifətin birliyi məsələsini müzakirə ediblər. Bundan başqa, Köçəryan müxalifət liderləri və vaxtilə yüksək vəzifələrdə çalışmış sabiq məmurlarla da telefon danışığı aparıb. Onların digər qüvvələrlə birlikdə Paşinyana qarşı aktiv fəaliyyətə keçməsi gözlənilir. Qəzet yazır ki, Köçəryan Rusiyadan dəstək alır, Paşinyandan çoxsaylı narazı qüvvələr isə onun ətrafında birləşir. Xüsusən də milyarder Qaqik Tsarukyanın tərəfdarlarının da prosesdə sabiq prezidentə aktiv dəstək verməsi onun şanslarını artırır və maliyyə problemlərini həll etməyə imkan verir:"Bu gün Konstitusiyada Paşinyanın göstəriş və sərəncamları ilə pozmadığı bir müddəa tapmaq çətindir. Müasir dünyada ölkəsindəki məhkəmələri mühasirəyə alan, hökmləri zorla dəyişdirən, kobud qanun pozuntuları ilə kadr siyasəti aparan, bir çox inqilabdan əvvəl oliqarxlarla oğurluq əlaqələri quran və onları "vicdanlı iş adamları" adlandıran yeganə liderdir. Hətta bu gün o, "ödəmək" istəməyən varlı insanları cəzalandırmağa, vəzifəsindən istifadə edərək ailənin qohumları vasitəsilə korrupsiya işləri həyata keçirməyə, milyardlarla dollarlıq vergidən yayınmağa çalışır. Paşinyanın sayəsində Ermənistan təkcə Qərbin deyil, həm də Ermənistanın müxtəlif millətlərarası iqtisadi və hərbi quruluşlarda iştirak etdiyi ölkələrin belə əlaqə qurmaq istəmədiyi ölkələr sırasında peyda olub. Təsəvvür edin ki, hələ bu sadalananlar vəziyyəti tam əhatə etmir. Paşinyan hökumətini xronoloji olaraq, koronavirus qabağı və koronavirus sonrası olmaqla iki dövrə bölmək olar. Bu kəskin parçalanmaya baxmayaraq, Paşinyan təkəbbürlü yalanları ilə hər iki sahədə fərqlənir. Onun yalanları iqtisadiyyatdan (iqtisadi inqilab, investisiya, iş yerləri) tutmuş səhiyyə, sosial və təhsilə (yüksək keyfiyyətli səhiyyə, sosial problemlərin yüngülləşdirilməsi, yeni təhsil proqramlarının tətbiqi və sair) qədər, demək olar ki, bütün sahələrə aid olub. Koronavirusdan sonrakı dövrdə Paşinyan epidemiya ilə mübarizəni iflasa uğratdı. Müvafiq xidmətlərin sədaqətinə cavab olaraq, yüz milyardlarla dollar pulu küləyə sovurdu, koronavirusla mübarizə üçün xarici yardımları toza çevirdi. Hakimiyyətdə olduğu 2 il ərzində Paşinyan hər gün, yeri gəldi-gəlmədi, insanların 80 faizinin etimadından danışıb və bütün addımlarını qondarma "reallıq"la əsaslandırıb. Paşinyanın artıq bu etimada sahib olmadığı tanınmış təşkilatların keçirdiyi sorğular, eləcə də sosial şəbəkələrdə populyar müzakirələrin aparılması ilə sübut olunur.



Paşinyan hökuməti və onun "ləpirçiləri" hazırda yalnız 5-7 faiz etimada sahibdir, faktiki olaraq qanunsuz bir hökumətə çevrilib və artıq nəinki ölkə daxilində, həm də xarici siyasətdə hər hansı bir problemi həll etmək iqtidarında deyil. Bunu dərk edən Paşinyan bol vədlər verdiyi ictimaiyyəti göz qamaşdıran məxməri inqilabın artıq axan sularına atmağa çalışaraq, siyasi repressiyalara əl atır. Köhnə populyarlığı bu şəkildə geri qaytarmağı düşünürsə, şübhəsiz ki, yanılır. Artıq o, qatara gecikib, bunun 5 və ya 15 dəqiqə olmağının fərqi yoxdur. Bu yolla Paşinyan, ən yaxşı halda, dünya tərəfindən çox görüldüyü və həm ortaq səylərlə, həm də ölkə vətəndaşlarının vahid tələbi ilə azad olduğu diktatorlardan birinə çevrilə bilər.

Diktatorları qovmağın yolları və vasitələri, əlbəttə ki, fərqlidir. Mədəni yollar var, məsələn, yerli və beynəlxalq məhkəmələr üsulu var, yaxud da o qədər də gigiyenik olmayan üsullar var, məsələn Səddam Hüseyn, Qəddafi, Mübarək və sair. İndi yaranmış durumda Paşinyan əleyhdarlarının cəmiyyəti sürətlə öz ətrafında birləşdirməsi baş nazirin taleyinin yaxşı olmayacağını göstərir. Bu prosesdə Robert Köçəryan ikinci dəfə Paşinyanı devirib hakimiyyətə gələ bilər. Vaxtilə o bunu Levon Ter-Petrosyana qarşı etmişdi". Erməni politoloq Robert Qevondyan qeyd edib ki, burada Moskvanın dəstəyi də yaddan çıxmamalıdır. Onun sözlərinə görə, Rusiyanın Ermənistanda maraqları var və o, siyasi sahənin ümumi landşaftını nəzərə alaraq bu maraqları təqib edir:"Rusiya KİV-ində Nikol Paşinyanın əleyhinə məqalələr, rus politoloqların Ermənistanda baş verən daxili siyasi proseslərə açıq şəkildə antihökumət reaksiyaları fonunda "Çiçəklənən Ermənistan" partiyasının deputatları ilə Rusiyanın Ermənistandakı səfiri Sergey Kopırkinin görüşü vəziyyəti daha da kəskinləşdirib. Həmçinin əsaslı iddia var ki, "Çiçəklənən Ermənistan" Partiyası bir çox tellərlə Rusiyaya bağlıdır. Belarus prezidenti və Tsarukyanın ünsiyyətləri də dostluq ünsiyyətləridir. Böyük ehtimalla, "Çiçəklənən Ermənistan" partiyasının Rusiyanın bəzi dairələri ilə müəyyən münasibətləri var. Rusiyanın müxtəlif ekspertlərinin, KİV-lərinin anti-Paşinyan mövqeyi də yenilik deyil".

**Digər bir erməni politoloq Armen Vardanyan isə qeyd edib ki, Rusiya öz qolları ilə Nikol Paşinyana təzyiq göstərməyə çalışacaq. Bu durumda Azərbaycanın işğal altındakı rejiminin Robert Köçəryana loyal münasibəti də Ermənistan baş nazirinə qarşı burada fəaliyyətin genişlənməsini istisna etmir.**

***Nahid SALAYEV***

**Son günlər aparılan müşahidələr onu göstərir ki, hələ də bəzi sərnişinlər sosial məsuliyyətdən kənar davranaraq avtobusda, nəqliyyat mübadilə mərkəzlərində və dayanacaqlarda qoruyucu tibbi maskadan istifadə etmirlər.**

*"Maska ilə ağız və burunu qapamadan avtobuslara girişə icazə verilməməsi çox gözəl tədbirdir, belə də olmalıdır"*

# Bakı Nəqliyyat Agentliyi Prezidentin Gəncədəki çağırışından ilk böyük nəticəni çıxardı - Maskasızların avtobuslara yolunu çoxdan bağlamaq lazım idi...

***Azər Nağıyev:** "Qapalı məkanlarda maska taxmaq zəruridir"*




Məlumdur ki, virusun ən sürətlə yayıldığı məkanlardan biri də ictimai nəqliyyatdır. İctimai nəqliyyatda tibbi maska taxılmasının zəruri olması dəfələrlə gündəmə gətirilib. Lakin bəzi vətəndaşlar hələ də məsuliyyətsizlik nümayiş etdirərək tibbi maska taxmadan avtobusa daxil olurlar. Nəticədə isə virusa yoluxanların sayı sürətlə artır. Virusa yoluxmanın qarşısını almaq üçün maska istifadə etməyən şəxs ictimai nəqliyyata daxil olarsa, həmin avtobus hərəkət etməyəcək.

Bakı Nəqliyyat Agentliyinin Mətbuat xidmətinin rəhbəri Mais Ağayev bildirib ki, bu cür məsuliyyətsiz davranışlara yol verən sərnişin özü ilə yanaşı, digərlərinin də sağlamlığını risqə atır: "Bu hal sərnişindaşımanın təşkili baxımından da olduqca təhlükəlidir və sürücülər arasında yoluxma ehtimalını ciddi şəkildə artırır. Virusa yoluxan bir nəfər sürücü istehsalat bazasında yüzlərlə əməkdaşı yoluxdura bilər ki, bu isə eyni anda bir və ya bir neçə marşrut xəttinin fəaliyyətinin dayanmasını qaçılmaz edir . Bu cür xoşagəlməz halların yolverilməzliyini və tibbi maskadan istifadənin mütləq olduğunu nəzərə alaraq, marşrut avtobuslarında bəzi qaydaların tətbiqinə qərar verilib. Bildiririk ki, sərnişinlərin maska taxmadan avtobusa minməsi qadağandır. Maskadan istifadə etməyən sərnişin olacağı halda avtobus dayanacaq məntəqəsini tərk etməyəcək. Yalnız sərnişin maska taxdıqdan sonra avtobus hərəkət edəcək. Artıq avtobuslara maskasız girişin qadağan olduğunu bildirən məlumatlar da yerləşdirilib".

İnfeksionist Azər Nağıyev bildirdi ki, qapalı məkanlarda maska taxmaq zəruridir: "Xəstəliyi məhdudlaşdırmaq üçün, ilk növbədə, sıravi vətəndaşlar bəsit qaydalara riayət etməlidirlər. Bunlardan birincisi maska taxmaqdır. Maska infeksiyadan ikili qoruma deməkdir. İnsan bununla özündə olan infeksiyanın hava yolu ilə damlalar şəklində digərlərinə keçməsinin qarşısını alır. Digər tərəfdən, infeksiyanın giriş qapısı olan yuxarı tənəffüs yollarını virusdan qorumaqla hər hansı məsuliyyətsiz insandan ona virus keçməsinə mane olur. İkinci məsələ sosial məsafənin gözlənilməsidir. Virusun sıçrama məsafəsi təxminən 1,5 metrə qədər hesab olunur. Odur ki, insanlar əsasən də qapalı məkanlarda aralarında 1,5-2 metr məsafə saxlamalıdırlar. Üçüncü ən sadə gigiyenik qayda normal həyat qaydasıdır. Bura əllərin vaxtaşırı adi sabunla yuyulması və dezinfeksiyaedici məhlullardan istifadə aiddir. Bu bəsit qaydalara riayət etmək lazımdır".

Həmsöhbətimiz onu da əlavə etdi ki, vətəndaşlar məsuliyyətli olarsa, virusun yayılması azala bilər: "Artıq dövlət bütün tədbirləri görüb. İndi isə məsuliyyət vətəndaşların üzərinə düşür. Təkcə dövlət tərəfindən tədbirlər görülməsi ilə problem həll olunmur. Gərək vətəndaş da məsuliyyətini anlaya və ən ibtidai qaydalara riayət edə. Biz həyat tərzimizdə kiçik də olsa dəyişiklik etməliyik. Düşünürəm ki, bu qaydaları uzun müddət özümüzə təlqin etməli və bu qaydalarla yaşamağı ən azı bir neçə ay və ya illik normal həyat tərzi kimi qəbul etməliyik. Onu da bildirim ki, artıq Bakı Nəqliyyat Agentliyi (BNA) sərt qayda tətbiq edib. Belə ki, avtobuslara maska taxmadan girməyə icazə verilməyəcək, maskadan istifadə etməyən sərnişin olacağı halda avtobus yerindən tərpənməyəcək. Bu qərarın verilməsini alqışlayıram. Maska ilə ağız və burunu qapamadan avtobuslara girişə icazə verilməməsi çox gözəl tədbirdir. Belə də olmalıdır. Hesab edirəm ki, bütün qapalı məkanlarda bu qayda tətbiq edilsə daha gözəl olar".

Xatırladaq ki, BNA tərəfindən marşrut avtobuslarında maskadan istifadə ilə bağlı yeni qaydaların tətbiqinə qərar verilib. İyunun 25-dən etibarən maskadan istifadə etməyən sərnişin olacağı halda avtobus dayanacaq məntəqəsini tərk etməyəcək. Bu qaydanın tətbiq edilməsində məqsəd virusun yayılma tempinin aşağı salınmasıdır.

***Günel CƏLİLOVA***

**Xəbər verildiyi kimi, Bakı şəhəri, Nizami rayonu, "Neolit City" şadlıq sarayının ərazisində ağacların kəsilməsi ilə bağlı ETSN-ə daxil olan şikayət yerində araşdırılıb və fakt təsdiqini tapıb.**

# "Neolit City" restoranı ilə Ekologiya... Nazirliyinin arasındakı problem Baş Prokurorluğa niyə çıxarıldı...

***Telman Zeynalov:** "Yaşıllığın məhv edilməsində başlıca rolu iş adamları oynayırlar"*




Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Mətbuat xidmətinin yaydığı məlumatda qeyd olunur ki, araşdırma zamanı Nizami rayonu, Mikayıl Əliyev küçəsi 3 ünvanında yerləşən "Neolit City" şadlıq sarayının ərazisində 30 müxtəlif cinsli ağacın kəsildiyi və təbiətə 37 380 manat məbləğində ziyan dəydiyi müəyyən edilib. Dəymiş ziyanın məbləği cinayət tərkibi yaratdığından, məsələyə hüquqi qiymət verilməsi və təqsirkar şəxslər barəsində qanuna müvafiq tədbirlərin görülməsi üçün toplanmış sənədlər Baş Prokurorluğa göndərilib.

Qeyd edək ki, Prezident İlham Əliyev ağac kəsilməsinə dəfələrlə etiraz edib.

"Neolit City" şadlıq sarayının nə səbəbdən 30 müxtəlif cinsli ağacı kəsdiyini öyrənmək istədik. Lakin şadlıq sarayının əməkdaşları bu mövzu ilə bağlı danışmaq istəmədiklərini bildirdilər.

Ekoloq Telman Zeynalov bildirdi ki, ağacların qanunsuz kəsilməsi müvafiq dövlət qurumlarının nəzarətinin lazımi səviyyədə olmaması ilə bağlıdır: "Mənə elə gəlir

*"...məcbur edilməlidir ki, yenidən yaşıllıq zonası yaratsın"*

ki, ağacların kəsilməsinə nəzarət edən ayrıca bir qurum olmalıdır. Vətəndaş cəmiyyəti də həmin quruma cəlb olunmalıdır".

Müsahibimiz hesab edir ki, yaşıllığın məhv edilməsində başlıca rolu iş adamları oynayırlar: "Biznesmenlər harada yaşıllıq varsa, həmin ərazini dağıdır, orada özləri üçün şadlıq sarayı, kafe, restoran və ya yaşayış binaları tikirlər. Nəticədə ağaclar qanunsuz kəsilir. Baxaq görək, hər hansı bir şəxs bir ağac əkirmi? Ancaq hamımız sağlamlığımızı tələb edirik".

Həmsöhbətimizin sözlərinə görə, ağacı qıran adamın cərimələnməsi düzgün qərardır. Həmin şəxsin cərimələnməsi ilə yanaşı, məcbur edilməlidir ki, yenidən yaşıllıq zonası yaratsın.

Unutmaq lazım deyil ki, ağacların kəsilməsi həm ekologiyaya, həm də insanların sağlamlığına ciddi ziyan vurur. Bu səbəbdən də yaşıllığı qorumaq hər bir vətəndaşın borcudur.

***Günel CƏLİLOVA***

# Gündəlik yoluxma sayı 600-ə yaxınlaşır - karantin qaydalarının yumşaldılmasında azacıq tələskənliyə yol verməsəydik...

**Son rəsmi hesablamalara görə, Azərbaycanda virusa yoluxanların sayı 14 min nəfəri keçib. Ölkəmizdə mart ayının əvvəlində elan edilən karantin rejimi tədricən, mərhələli şəkildə yumşaldıqdan sonra gündəlik virusa yoluxanların sayında kəskin artım müşahidə edilməyə başladı.**

Əvvəlki bir ayda gündəlik yoluxanların sayı 200-300 civarında idisə, sonradan bu, 400-500 oldu. İndi isə təəssüf ki, ölkəmizdə gündəlik virusa yoluxanların sayı 590 nəfərdir. Artıq rəqəm 600-ə yaxınlaşır.

Karantin qaydalarının mərhələli yumşaldılması prosesinin xeyrindən çox zərərinin hiss edildiyi gizlin deyil. Çünki bu hal karantin rejimi yumşaldıqdan sonra özünü daha ağrılı formada büruzə verməyə başlayıb. Ekspertlər hesab edirlər ki, Azərbaycanda karantin qaydalarının yumşaldılması prosesində tələskənliyə yol verildi və qaydaların yumşaldılması prosesinə iyul ayından başlanmalı idi. İnsanların karantin qaydalarının yumşaldılmasından nəticə çıxarmaq əvəzinə, sui-istifadəyə yol verdiyini deyən ekspertlərin bildirdiyinə görə, karantin qaydaları yumşaldılan kimi vətəndaşlar küçələrə axışdılar, alış-veriş haqqında düşündülər, bununla özlərinin və başqa insanların həyatını risq altında qoyduqlarını unutdular.

Ekspertlər hesab edirlər ki, hazırda problemdən yeganə çıxış yolu vətəndaşların məsuliyyətli olması və bu da nəticə verməsə, təkrar karantin rejiminin sərtləşdirilməsidir.

Siyasi şərhçi Azər Həsrət "Bakı-Xəbər"ə bildirdi ki, əvvəlcədən də virusa yoluxanların sayının artacağı proqnozlaşdırılırdı. "Mən indi xatırlayıram ki, mart ayında, Novruz bayramı günlərində biz bu məsələni müzakirə etmişdik. Onda hələ yoluxanların sayı 2-3 nəfər idi. O vaxt da dedim ki, biz bu məsələni ciddiyə almırıq, belə getsə, biz yüzlərlə insanın virusa yoluxduğunu müşahidə edəcəyik. Bu, təkcə Azərbaycanda deyil, bütün dünyada belə olmaqdadır və olacaq da. Onu düşünmürəm ki, burada əsas rolu karantinin yumşaldılması oynadı. Əksinə, sərt karantin rejimi elan olunub. Amma biz baxırıq ki, insanlarımız yenə avtobuslarda sosial məsafə saxlamır, bir-birinə yaxın durub gedirlər, yenə də düşünürəm ki, karantin qaydaları biz az da yumşaldılmalı, insanların rayon və kənd yerlərinə gedib istirahət etməsinə şərait yaradılmalıdır. Virusa yoluxanların sayının artmasında əsas səbəb karantinin yumşaldılması deyil, vətəndaşlarımızın, bizim insanın məsuliyyətsizliyi və bivecliyidir. Yəni adicə 30 qəpiklik maska nədir ki, onu taxmırlar. İndinin özündə Bakıda, Sumqayıtda, Gəncədə və sair şəhərlərimizdə dükan-bazarda, alış-veriş yerlərində maskasız görünürlər. Yəni evdən çölə çıxanda maska taxmaq lazımdır. Bu gün virusla bağlı problemin kəskinləşməsinə səbəb insanlarımızın məsuliyyətsizliyi, səhlənkarlığıdır. Yoxsa ki, karantin rejiminin yumşaq və sərt olmasının fərqi yoxdur. Şəxsən mənim üçün karantinin yumşaq və ya sərt olmasının o qədər də əhəmiyyəti yoxdur. Çünki evdən çıxanda mütləq maska taxıram, harasa alış-verişə gedəndə, ictimai nəqliyyata minəndə maskadan istifadə edirəm, sosial məsafə gözləyirəm və digər qaydalara əməl edirəm. Yalnız özüm tək olduqda, ətrafımda adam olmadıqda maskanı çıxarıram. Təəssüflər olsun ki, mənim maska taxdığım şəraitdə insanların 90 faizi maskasızdır. Bax, problemin kökü bundadır. Dövlət və insanlarımız bu qədər çağırışlar edir, amma əfsuslar olsun ki, vətəndaşlarımızın böyük əksəriyyəti bunu anlamaqda çətinlik çəkir, anlamaq istəmir. Hətta elə cahil adamlar da tapılır ki, günü bu gün də koronavirusun boş, yalan şey olduğunu əsassız olaraq iddia edirlər. Arıq dünyada virusa yoluxanların sayı az qala 10 milyona çatıb, yarım milyona yaxın da ölən var. Bu qədər böyük rəqəmlər varkən, insanlar buna niyə şübhə ilə yanaşırlar, anlaya bilmirəm".




***Azər Həsrət:*** *"Virusa yoluxanların sayının artmasında əsas səbəb karantinin yumşaldılması deyil, vətəndaşlarımızın, bizim insanın məsuliyyətsizliyi və bivecliyidir"*

***Əhməd Qəşəmoğlu:*** *"Hesab edirəm ki, əvvəlcə əhali yumşaldılma prosesinə hazırlanmalı və sonra bu barədə qərar verilməli idi"*

Tanınmış sosioloq, professor Əhməd Qəşəmoğlu isə hesab edir ki, problemin dərinləşməsinin əsas səbəblərindən biri karantinin yumşaldılmasında tələskənliyə yol verilməsi olsa da, burada vətəndaşların da məsuliyyətsiz davranışları az rol oynamayıb. "Doğrudur, karantin rejiminin yumşaldılmasında tələskənliyə yol verildi. Amma problemin dərinləşməsində əsas səbəb tam olaraq bu deyil. Hesab edirəm ki, əvvəlcə əhali yumşaldılma prosesinə hazırlanmalı və sonra bu barədə qərar verilməli idi. Mən Prezidentin çıxışına baxdım. Prezidentin toxunduğu məsələlərin hamısı vacib məsələlərdir. Prezident çağırış edir, müxtəlif qurumlara tapşırıqlar verir, bu çox müsbət haldır. Amma bu işə məsul olan məmurlar Prezidentin tələblərinə uyğun davranmır, öz üzərlərinə düşən məsuliyyəti və Prezidentin onlardan nə istədiklərini anlamırlar. Bu işə məsul olan məmurlar başdan əhali ilə işləməli idilər, bu işə sosioloqlar cəlb edilməli idi. Onlar əhalinin rəyini, fikir və təkliflərini öyrənməliydilər. Amma bəzi məmurlar özlərini hamıdan ağıllı sayıb sağlam təkliflərə əhəmiyyət vermədilər. Əhali məsuliyyətsizliyə ona görə yol verdi ki, vaxtında məmurlar onlarla işləmədi, maarifləndirmə işi düzgün qurulmadı. Müasir Azərbaycan insanı 30-40 il əvvəlki insanlar deyil, müasir kompyuter bilgilərinə yiyələnmiş insanlardır. Onlarla iş tamam başqa mexanizmlər əsasında qurulmalı idi. Maarifləndirmə tamamilə yeni üsullarla aparılmalıdır, bu işə, dediyim kimi, sosioloqlar, eləcə də epidemioloqlar cəlb edilməli idi. Əhali ilə onlar da işləməli idi" - deyə Ə.Qəşəmoğlu qeyd etdi.

***İradə SARIYEVA***

№ 102 (4233) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

26 İYUN 2020-ci il

www.baki-xeber.com



# Süni zəka məşhur rəssamların rəsm çəkmək tərzlərini "kopyalamağı" öyrənib

**Sənətşünasların fikirlərinə əsasən, hər bir istedadlı rəssam özünün unikal rəsmçəkmə tərzinə sahibdir. Yaradılmış yeni neyron şəbəkəsi isə məşhur müəlliflərin rəsm əsərlərini yaratmaqla yanaşı, bunu həmin rəsm əsərlərinin çəkilmə ardıcıllığı ilə reallaşdırmağı da bacarır.**

Bu barədə "Engadget" saytı xəbər verib. "Timecraft" adlı "machine learning" sistemi Massaçusets Texnoloji İnstitutunun süni zəka laboratoriyasının (MIT CSAIL) proqramçıları tərəfindən yaradılıb. Tədqiqatçılar yaradılmış bu süni zəkaya ümumi xronometrajı 200 saat olan video sərgiləyiblər. Həmin videoda rəqəmsal və akvarel rəsmlərin çəkilmə prosesləri slow-mo rejimdə əks olunublar. Daha sonra əldə olunmuş məlumatlar əsasında rəsm əsərlərini çəkə bilən neyron şəbəkəsi yaradılıb. 90% ehtimalda bu süni zəka sistemi tapşırığın öhdəsinən hazırda mövcud olan analoqlardan daha yaxşı gəlir. Bununla yanaşı, təcrübə zamanı sözügedən süni zəka sistemi insanları da aldatmağı bacarıb. Belə ki, insanlar elə hesab edirdilər ki, onların qarşısında olan rəsm əsərləri insan tərəfindən çəkilib. Halbuki, həmin rəsm əsərləri bu süni zəka sistemi tərəfindən yaradılıb. Hazırki mərhələdə süni zəka yalnız video vasitəsilə öyrənilmiş rəsm əsərlərinin yüksək səviyyədə surətlərini yarada bilir. Proqramçıların fikirlərinə əsasən, bu süni zəka sistemindən rəsmçəkmə tarixinin təlimçisi kimi istifadə etmək olar.

## Milçək və ağcaqanadlar koronavirusa yoluxdura bilər? - Professor açıqladı

**Bu günə qədər dünyada milçək və ağcaqanad vasitəsilə COVID-19-a yoluxma faktı aşkarlanmayıb. "Milli.Az" xəbər verir ki, bu barədə türk professor Gülbüz Sezgin danışıb.**



Professor bildirib ki, SARS-CoV-2 yoluxan şəxsin öskürək, asqırıq, burun seliyi və bu kimi hərəkətləri zamanı başqalarına keçir, sağlam insana isə burun, göz, ağız vasitəsilə yoluxur: "Koronavirusun milçək və ağcaqanaddan insana yoluxması üçün əvvəlcə onun özünün virus qapması, onu tüpürcəyində və bağırsağında çoxaltması lazımdır. Ümumdünya Səhiyyə Təşkilatı və ABŞ Ağcaqanadlara Nəzarət Birliyi də ağcaqanadların COVID-19 daşıyıcısı olmadığını qəbul edir. Bunun səbəbi isə virusun hələ onlara yoluxmamasıdır". Sezgin ağcaqanadlardan qorunmaq üçün bu tövsiyələri verib: "Sabit qalan suyu qurudun. Hava axınını təmin edin. Çünki ağcaqanadlar 1 qaşıq qrunt suyunda belə yaşaya bilər və güclü uçma qabiliyyətinə malik deyil. Günün müəyyən saatlarında diqqətli olmaq lazımdır, çünki ağcaqanadlar qaranlığı sevir. Çöldə gəzərkən həşəratqovucu spreylərdən istifadə etmək lazımdır". Qeyd edək ki, milçək və ağcaqanad bu günədək malyariya, sarı qızdırma, denqe qızdırması, Zika, Qərbi Nil virusu kimi epidemiyaların yayılmasının başlıca səbəbkarları olub. Təkcə 1 ildə dünyada 100-400 milyon insan ağcaqanadlar vasitəsilə ölümcül denqe qızdırmasına yoluxur.

## Mars atmosferində oksigen işıqlanması qeydə alındı



**Alimlər Marsın atmosferində yaşıl parıltı qeydə alıblar. Karbon qazından oksigenin atomlarını azad edən belə hadisə günəş işığından yaranır.**

"Ted.az" bildirir ki, astronomlar bildirirlər ki, bu, belə işıqlanmanın Yer kürəsindən kənarda müşahidə edildiyi ilk hadisədir. Mars üzərində bu cür parıltı ilk dəfə 40 il əvvəl müşahidə edilib. Lakin astronomlar Avropa Kosmik Agentliyi və Roskomosun sayəsində "ExoMars Trace Gas Orbiter (TGO)" adlı orbital aparatının köməyi ilə bu hadisəni təsdiq edə biliblər. Ötən ilin aprel-dekabr ayları ərzində toplanmış məlumatlara əsasən, alimlər 20-dən 400 kilometrə qədər hündürlükdə yaşıl oksigen işıqlanmasının şahidi olublar. Bu kəşf Marsda gələcək missiyalar üçün faydalı ola bilər.

### Elan

Şəki rayonu, Baş Layısqı kənd sakini Orucov Tahir Mürsəl oğlunun və ailə üzvlərinin adına verilmiş JN-0081 saylı torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyi üçün etibarsız sayılır.

## Qrafen əsasında hazırlanmış parça istidə soyuyur və soyuqda isinir

**Qrafen əsasında hazırlanmış parça istidə soyuyur və soyuqda isinir.**

Geyim bunu özü və ya istifadəçinin komandası ilə tənzimləyə bilər. "İctnews.az" bildirir ki, Mançester Universitetinin alimləri tərəfindən hazırlanmış yeni tip "ağıllı" parçanı adaptiv geyimə tətbiq etmək olar: o, isti havada sərinliyi saxlayır və yaxud əksinə. Bu, qrafendən istifadə sayəsində mümkün olur. "İstilik şüasına nəzarət etmək qabiliyyəti bir çox sahə üçün əsasdır" - tədqiqatlara rəhbərlik etmiş professor Koskun Kokabas izah edib. "Ətraf mühitin istiləşməsi və ya soyuması vəziyyətində hər iki funksiyanın qorunub saxlanılması - bu çətin tapşırıqdır".





**Qoç** - Riskli işlərə qatılmayın. Tələsik qərarlar qəbul etməyin. Bəxtə, uğura bel bağlamayın. Məntiqli davranın, konkret addım atmazdan əvvəl yaranmış situasiyanı təhlil edin.

**Buğa** - Yaxın perspektivlə bağlı ümidlərinizi itirməyin. Ruhdan düşməyin, nikbin olun. Problemlərin sayı sizi narahat etməsin. Hər şey ilk baxışdan göründüyü kimi pis deyil. Sonsuz qayğılar sizi usandırmasın.

**Əkizlər** - Yaxşı gəlir vəd olunan işlə bağlı təklifləri qəbul etməyə tələsməyin. Anlaşma və sövdələşmələr üçün pis zaman deyil. İşdə həmkarlarla münasibətlərdə diqqətli olun.

**Xərçəng** - Yeni tanışlıqlar istisna deyil. Problemlərinizin həllində yardım və ya dəstək ala bilərsiniz. Çətinlikləri aradan qaldırılması üçün optimal yolu seçin. Yaşamınızda yeni, uğurlu dönəmdir.

**Şir** - İzafi ambisiyalarınızın əsiri olaraq sosial statusunuzu süni şəkildə yüksəldilməsinə çalışmayın. Nəzərdə tutduğunuz planları tələsmədən reallaşdırın. Seçim zamanı normal düşünün.

**Qız** - Yarımçıq qoyduğunuz işləri başa vurun. Rutin işləri başa vurmaq, problemlərin həllinə yaradıcı yanaşma nümayiş etdirin. İşdə həmkarlarla münasibətləri normallaşdırın, rəhbərliyin tələblərini yerinə yetirin.

**Tərəzi** - Anlaşma, sövdələşmə və yeni sifarişlərin qəbulu üçün əlverişli gündür. Amma tələsməyin, imzalayacağınız sənədi və ya anlaşmanı yaxşı oxuyun. Həmkarlar, dostlar və qohumlar uğurlarınızı yüksək dəyərləndirəcəklər.

**Əqrəb** - Yeni işə başlamaq, biliklərdən və təcrübədən yararlanmaq üçün əlverişli zamandır. Yaşamda karınıza gələ biləcək informasiyanı əldə edə bilərsiniz. Ünsiyyət çevrəsini genişləndirin.

**Oxatan** - İşlərinizi qaydaya salın, hədəf və məqsədləri konkretləşdirin. Yaxın ətrafınızdakı insanlardan bir qədər kənarlaşın və yeni tərəfdaşlarla çalışmağa başlayın. Birgə layihələr istədiyiniz kimi uğurlu olmayacaq.

**Oğlaq** - Çətin və mürəkkəb gündür. Diqqət mərkəzində olacaqsınız. Aktiv fəaliyyət göstərin. Önəmli qərarların qəbulunda tələskənlik etməyin. Yaşamınıza təsir imkanları böyük olan insanlar sizi müşahidə edirlər.

**Dolça** - İşdə bədxahların intriqalarının qurbanına çevrilməyin. Problemin yaranmasında sizin iştirak etmədiyinizi sübut etməyə səy göstərməyin. Münasibətləri aydınlaşdırana qədər konkret işlərlə lider olduğunuzu sübut edin.

**Balıqlar** - Mümkün qədər soyuqqanlı, sakit və təmkinli olmalısınız. Qarşınıza qoyduğunuz məqsədə doğru yorulmadan, usanmadan addımlayın. Altruizm, ideya və planları yaxın ətrafınızdakı insanlarla bölüşmək istəyi bəhrə verə bilər.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*



## İranın Hir çayı üzərində turistlər üçün şüşədən körpü tikilib

**İranın Ərdəbil vilayətinin Sərcəm bölgəsi turistlərin ən çox ziyarət etdiyi məkanlarından biridir.**

AZƏRTAC xəbər verir ki, turistlərin regiona cəlb edilməsi üçün Hir çayı üzərində şüşədən körpü tikilib. Hir asma körpü turistlərin böyük marağına səbəb olub. Çayın üzərindən təxminən 200 metr hündürlükdə olan asma körpünün üzərində dayananlar gözəl təbiəti seyr edə bilirlər.

*Hazırladı: Namiq QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.